Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

8 MAY 2020-ci il

№ 74 (4205)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ERMƏNİSTANIN YENİ XARİCİ SİYASƏT KURSU - PAŞİNYAN ERMƏNİSTANI «DÖVLƏT SAYMAYANLARA» MÜHARİBƏ AÇDI...

■ səh. 7 ■

Azərbaycan Prezidenti koronavirusla mübarizə təcrübəsini 150 milyondan çox rusiyalılar auditoriyası ilə bölüşdü - Prezident veteranlara söz də verdi...

■ səh. 8-9 ■

Prezidentin videokonfransda "sədrlik dövründə fəaliyyət qrafikimiz var" sözləri təsdiqlənir - Hikmət Hacıyevdən yeni xəbər...

■ səh. 4 ■

Azərbaycan Prezidentinin yeni infrastruktur layihəsi - "modul xəstəxana" nədir...

■ səh. 10 ■

Paşinyandan yeni pozuculuq - Qarabağ məsələsində onun hələ "2018-ci ildəyəm" iddiasına vasitəçilər niyə susdu...

■ səh. 9 ■

Qarabağda yeni savaşın işartıları: Azərbaycan rəsmilərinin cəbhə bölgəsinə səfəri İrəvanda təşvişi pik həddə çatdırdı...

■ səh. 6 ■

"Başçı rüşvətxorluğu" Azərbaycanda icra hakimiyyətləri institutunun nüfuzuna sarsıdıcı zərbə kimi - yeni institutlar olacaqmı...

■ səh. 5 ■

Ermənistan bu dəfə Çinin qəzəbinə tuş gəldi - ABŞ biolaboratoriyaları İrəvana ciddi baş ağrıları vəd edir

■ səh. 11 ■

Azərbaycan koronavirusla mübarizədə regional liderdir

■ səh. 13 ■



■ səh. 2 ■

## Azərbaycan Prezidenti qətiyyətlə «Cəzaları sərtləşdirin» tapşırığı verdi - koronavirusla mübarizənin yalnız birinci mərhələsi bitib, o vaxt qurtaracaq ki...



Türk Ticarət Evi, Birgə İnvestisiyalar Fondu - Türk dünyasında İlham Əliyevin yeni təşəbbüsləri...

■ səh. 4 ■



«Mən, Vanetsyan və Paşinyan» - keçmiş diplomatlar Paşinyanla döyüşə başladılar...

■ səh. 7 ■



Rüşvətlə tutulan icra başçılarının arxasından «tayfa-klan» məmurlar qrupu çıxır - oğul, qız, qardaş, əmi...

■ səh. 5 ■

■ səh. 3 ■

Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı növbəti dəfə Azərbaycan xalqına müraciət etdi



■ səh. 3 ■

"Erməni quyruğu" deputat Karo Paylan qardaş Türkiyəyə və şəxsən cənab Ərdoğana meydan oxumaqdadır...



■ səh. 9 ■

"Freedom House"dakı erməni idarəçilər Ermənistanı yenə Azərbaycandan qabağa keçirdi, halbuki...



■ səh. 12 ■

Bakıda virusa yoluxmanın episentrləri - Yasamal və Sabunçu... Nədən...



■ səh. 14 ■

Koronavirusun yayılmasında vətəndaş məsuliyyətsizliyi faktorunun rolu - yoluxanların cəmi 10 faizi xaricdən gələnlərmiş, 90 faizi isə...



# Azərbaycan Prezidenti qətiyyətlə "Cəzaları sərtləşdirin" tapşırığı verdi - koronavirusla mübarizənin yalnız birinci mərhələsi bitib, o vaxt qurtaracaq ki...

**Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin açılışında iştirak edib. Dövlət başçısı görüşdə deyib ki, koronavirusa qarşı mübarizədə bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar böyük rol oynayacaq:**

- Ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir.

...İnkişaf etmiş ölkələrdə gündə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir, əlbəttə ki, Azərbaycanda bu sahədə görülmüş işlər xüsusi əhəmiyyət daşıyır və bunu hər kəs görür. Hətta bizimlə eyni sayda əhalisi olan ölkələrdə artıq uzun müddətdir ki, hər gün yüzlərlə insan vəfat edir. Bu ölkələrin səhiyyə sistemi həmişə bütün dünyaya, o cümlədən bizə nümunə kimi göstərilirdi. Ancaq bu dövrdə hər kəs gördü ki, orada vəziyyət artıq böhranın pik həddinə çatıb. Ona görə, əlbəttə ki, müqayisə aparılanda Azərbaycan dövlətinin gördüyü işlər böyük üstünlük təşkil edir.



### "Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb"

...Karantin rejimi nə üçün sərtləşdirilirdi? Yoluxma hallarının geniş yayılmasının qarşısının alınması üçün və biz buna nail olduq. Birinci mərhələdə bu virus bizə, belə demək mümkündürsə, idxal edilmişdir, amma ondan sonra daxili yoluxma halları baş vermişdir. Dərhal operativ tədbirlər görüldü və məhz sərt karantin qaydalarına görə biz bu mərhələni az itkilərlə başa vurduq. Görəndə ki, artıq 3 həftə ərzində hər gün sağalanların sayı yoluxanların sayından xeyli çoxdur, onda biz artıq yumşalma tədbirləri görməyə başladıq. Ancaq əfsuslar olsun ki, bəzi adamlar bunu karantin rejiminin ləğvi kimi qəbul etdilər. Əfsuslar olsun ki, bəzi adamlar karantin rejiminə əməl etmirlər. Yumşalma tədbirləri yalnız bir məqsədi güdürdü ki, insanların öyrəşdiyi həyat tərzi müəyyən dərəcədə bərpa olunsun. Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb, xeyr. Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım olarsa, uzadılacaq. Ona görə son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa, - mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin, - biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq.

...Ölkəmizin bəzi bölgələrində sanki pandemiyanın yeni mərhələsi başlayır, xüsusilə Gəncə şəhərində. Buna çox ciddi yanaşmaq lazımdır. Ona görə indiki karantin rejimində Bakı, Sumqayıt, Abşeron, Gəncə, Lənkəran üçün xüsusi rejim var. Nəyə görə? Çünki bu yerlərdə, bu şəhərlərdə xəstələrin sayı, yoluxma halları daha çoxdur. Son günlərdə yoluxanların, demək olar ki, 30, 40, 50 faizi Gəncə şəhərinin payına düşür. Deməli, orada vəziyyət narahatlıq doğurmalıdır.

...Dünən mən baxmışam, bankın qabağında bir-birinin yanında durublar, maska yox, müxbirlər soruşurlar ki, nə üçün? Elə bil ki, məktəb uşaqlarıdır, min cür bəhanə gətirirlər - yadımdan çıxdı, havada maska lazım deyil, cibimdədir. Biz belə münasibətə dözə bilmərik. Bu zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində.

...Həkimlər, mütəxəssislər yaxşı bilirlər və geniş ictimaiyyət də bilməlidir ki, koronavirusa qarşı mübarizə o vaxt başa çatacaq ki, peyvənd hazırlanacaq. İndi bütün dünya bu peyvəndi gözləyir. Peyvəndin icad edilməsi üzərində bir çox ölkələrdə alimlər işləyir. Peyvənd hazırlanandan sonra artıq deyə bilərik ki, bəli, biz özümüzü bu virusdan qoruya bilərik. O vaxta qədər virus var və bunu hər kəs bilsin.

...Həkimlər öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına qoyurlar, xəstələrə gecə-gündüz xidmət edirlər. Biz həkimlərin fədakarlığını yüksək qiymətləndiririk. Bir daha Azərbaycan xalqı gördü ki, ən çətin dövrdə, bu pandemiya dövründə aparıcı şəxs, aparıcı adam insanların həyatını qoruyan həkimdir. Əlbəttə, bütün başqa amillərlə bərabər, dövlət lazımi tədbirləri görür. Amma son nəticədə xəstələri müalicə edən, onları həyata qaytaran həkimlərdir.

...Əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük. Kasıbın malına, ərzaq payına göz dikən xaindir, bunun başqa adı yoxdur. Bu, oğurluq deyil, bu, kiçik bir cinayət deyil. Heydər Əliyev Fondu tərəfindən göndərilən ərzaq paylarına sahib çıxmaq istəyən vəzifəli şəxslərin hərəkətinə nə demək olar? Ancaq xəyanət. Mən demişəm, bir daha demək istəyirəm ki, bir çoxları pandemiyanı müharibə adlandırırlar. Müharibə, əslində, göz qabağındadır. Bu şəraitdə belə adamlara nə ad vermək olar? Ona görə bu adamların cəzalandırılması qaçılmazdır. Eyni zamanda, indiki şəraitdə xüsusilə kasıb adamların maaşını mənimsəmək, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb ondan pul çəkmək, bu da xəyanətdir. Son müddətdə həbs olunan icra başçılarının beşi də bu bəd əməllərdə təqsirləndirilir. Son həbslər də onu göstərir. O icra başçılarının, onların yaxınlarının, köməkçilərinin iş otaqlarından yüzlərlə ödəmə kartı çıxıb, yüzlərlə. Mənə verilən məlumata görə, son tutulan icra başçısının iş otağından 140 ödəmə kartı çıxıb. Bu xəyanətdir. Bunun başqa adı yoxdur...

### "...insanların sağlamlığı və sosial rifahı birinci yerdədir"

...Pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. İstisna deyil ki, ikinci rübün yekunları o qədər də ürəkaçan olmayacaq. Ancaq bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır. Biz bilirik ki, əgər karantin rejimini bax, dediyim bu səbəblərə görə sərtləşdirsək, iqtisadi vəziyyətimizə bunun çox mənfi təsiri olacaq. Amma biz buna gedəcəyik. Çünki insanların sağlamlığı və sosial rifahı birinci yerdədir. Məhz bu məqsədlə 3,5 milyard manat vəsait ayrıldı. Pandemiyadan ən çox ziyan çəkən sahələrdə işini itirən 700 minə yaxın vətəndaşın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən verilir. Bu məqsədlə 600 min işsiz, aztəminatlı və qeyri-formal məşğulluqla pul qazanan insanlar dövlət tərəfindən maddi yardımla təmin edilir.

### "10-dan çox ölkəyə yardım etmişik..."

...Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda pandemiyaya qarşı mübarizə istiqamətində görülmüş tədbirləri yüksək qiymətləndirib, bizi nümunəvi ölkə adlandırıb. Bu həqiqətən də belədir. Azərbaycanda həm ölkə daxilində, ilk növbədə, bütün lazımi tədbirləri görürük və beynəlxalq müstəvidə də öz sözümüzü deyirik. Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk. Pandemiyaya qarşı qlobal mübarizədə biz birinci ölkələrdən olduq ki, Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verdik. Bu yaxınlarda artıq Qoşulmama Hərəkatının sədri kimi əlavə 5 milyon dollar ianə verdik Ümumdünya Səhiyyə Təşkilatına ki, bizimlə razılaşdırmaqla Hərəkata üzv ölkələrə yardım göstərilsin. Bilirsiniz ki, mənim təşəbbüsümlə iki Zirvə görüşü keçirildi - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Hər iki təsisatda Azərbaycan hazırda sədrdir. Bu təşəbbüs vaxtında və yerində olan təşəbbüsdür. Demək olar ki, bütün dünya birliyi bunu alqışlayır və Azərbaycanın rolunu qeyd edir.

...Bugünkü açılış böyük rəmzi məna daşıyır. Birincisi ona görə ki, 10 xəstəxana işə düşəndən sonra bizim əlavə 2 min çarpayımız olacaqdır. Amma əsas odur, bu onu göstərir ki, biz qısa müddət ərzində bütün resursları səfərbər edib yüksək nailiyyətlərə nail ola bilmişik.

# Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı növbəti dəfə Azərbaycan xalqına müraciət etdi

**Birinci vitse-prezident Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı xalqımıza növbəti dəfə müraciət edib. "Trend"in məlumatına görə, Mehriban Əliyevanın rəsmi saytında yer alan müraciətdə deyilir:**

"Hörmətli həmvətənlər!

Sizinlə ölkəmizdə COVID-19 epidemiyasının hazırkı vəziyyəti ilə bağlı fikirlərimlə bölüşmək istəyirəm.

Keçdiyimiz yolu dəyərləndirərək, bu gün artıq deyə bilərik ki, bu şiddətli virus hücumu başlayanda onun real miqyasını, təhlükə dərəcəsini və törədə biləcəyi fəsadları qiymətləndirmək və dərk etmək üçün çox az məlumat var idi. Bir şey aydın idi - bütün imkanları səfərbər etmək və qəti tədbirlər görmək lazım idi. Əminliklə təsdiqləyə bilərik ki, ölkəmiz bu vəzifənin öhdəsindən şərəflə gəldi. Həm azərbaycanlı, həm də beynəlxalq ekspertlərin fikrincə, Azərbaycan epidemiyanın ilk və olduqca təhlükəli mərhələsindən ən az sayda itkilərlə çıxan dövlətlər sırasında yer alıb. Biz ən əsas məsələlərə - virusun sürətli yayılmasının qarşısını almağa, epidemiya ilə mübarizənin bütün aspektlərini əlaqələndirən peşəkar komanda yaratmağa, lazımi texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Sərt karantin tədbirləri sayəsində koronavirusun yayılma sürətini azaltmağı bacardıq. Səhiyyə sistemi qısa müddət ərzində təhlükəli epidemiyaya qarşı effektiv müqavimət strategiyası işləyib hazırladı. Şəhərlərin və kəndlərin həyat təminatı obyektlərinin işçiləri təxirəsalınmaz məsələləri həll edirdilər. Kiçik və orta biznesə dəstək, habelə əhaliyə sosial yardım məqsədilə dövlət tərəfindən dəyəri 3 milyard manatdan çox olan proqram paketləri hazırlanıb həyata keçirilir.

Bir sözlə, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü həqiqətən də faciəli ssenaridən qurtara bildi.

Əməyi uğurlarımızın qarantı olan hamıya və hər kəsə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Çətin sınaq günlərində xalqımız bir daha ən yaxşı xüsusiyyətlərini nümayiş etdirdi və bu, sonsuz təşəkkürə layiqdir. Biz öz Vətənimizin təhlükəsizliyinin qayğısına qalırdıq və qalırıq, təhlükəyə qarşı yenilməz birlik nümayiş etdiririk. Əziz həmvətənlərim, biz birlikdə xəstəliyin məhvedici dərəcədə tez yayılmasından öz evimizi qoruya bildik. Buna görə çox sağ olun!



Bizim cəsarətli tibb işçilərimizə - həkimlərə, tibb bacıları və qardaşlarına, laborantlara, xəstəxana və klinikaların texniki heyətinə, gecə-gündüz insanların həyatı və sağlamlığı naminə mübarizə aparmağa davam edən hər kəsə bir daha səmimi və sonsuz təşəkkürümü ünvanlayıram. Polislərə və daxili qoşunların hərbi qulluqçularına dərin təşəkkürümü bildirirəm. Axı bu çətin günlərdə asayişi, təhlükəsizliyi və karantin tədbirlərinə əməl olunmasını məhz onlar təmin edirlər.

Heydər Əliyev Fondunun, "Regional İnkişaf" İctimai Birliyinin bütün əməkdaşlarına, sosial işçilərə və könüllülərə təşəkkür edirəm. Bu məsələyə laqeyd yanaşmayan bütün insanlara, yaxınlarına kömək göstərən, xeyirxahlıq edən hamıya minnətdaram. Uca Tanrı yaxşı əməl sahiblərinin savabını artıracaqdır!

Əziz dostlar!

Müsbət nəticələr sayəsində biz təcrid rejiminin müəyyən dərəcədə yumşaldılmasına imkan verə bilərik. Bir sıra dövlət qurumlarının və özəl biznes sektorunun fəaliyyəti bərpa olunur. Daha əvvəl tətbiq olunan bəzi karantin tədbirləri ləğv edilir. Bu, o deməkdirmi ki, hər şey arxada qaldı və biz gündəlik həyatımıza geri dönə bilərik? Əfsuslar olsun ki, həmin vaxt hələ gəlib çatmayıb. Bəli, biz ilk döyüşdə qalib gəldik, amma pandemiya ilə müharibə hələ davam edir - bizim ölkəmizdə və bütün dünyada. Bütün ölkələrə və xalqlara bu qədər bəla və əzablar yaşadan virus hələ məğlub olmayıb. O, əvvəlkitək hamı üçün ciddi təhlükə olaraq qalır və əvvəlkitək bizim aramızdadır. COVID-19-a qarşı vaksinin nə zaman hazırlanacağını və xəstəliyin tez və effektiv müalicə üsulunun nə vaxt yaranacağını bu gün dəqiqliklə heç kim deyə bilmir. Hələ ki, bu baş verməyib, hamımız dərk etməli və qəbul etməliyik ki, biz bu yeni reallıqla yaşamalıyıq. Biz heç bir halda sayıqlığımızı itirməməli, ümidverici rəqəmlər fonunda səhlənkarlığa imkan verməməliyik. Belə əziyyətlə nail olduğumuz nəticələri sıfıra endirərək itirmək yolverilməzdir.

Laqeydlik hər birimizə, bizim yaxınlarımıza, bizim ölkəmizə real təhlükə törədəcəkdir. Biz hamımız yeni qaydalarla yaşamağı öyrənməliyik. Əslində bu qaydalar elə də çətin deyil - məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Tərəzinin digər gözündəki həyat və sağlamlığımızdır. Yeni acı həqiqət budur və bununla Prezidentdən başlayaraq sıravi vətəndaşlaradək hamı hesablaşmaq məcburiyyətindədir.

Əziz həmvətənlər!

Şübhəsiz ki, COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Çox ümidvaram ki, həmin gün uzaqda deyil. Amma hələ ki, o gün gəlməyib, hörmətli qardaşlar və bacılar, xahiş edirəm, sayıq və intizamlı olun, yeni qayda və tələblərə tam ciddiyyətlə yanaşın. Özünüzdən və yaxınlarınızdan muğayat olun! Bizim sevimli Vətənimizi, bizim Azərbaycanımızı qoruyun!

Dərin hörmət və sevgilərlə,

**Sizin MEHRİBAN".**

# "Erməni quyruğu" deputat Karo Paylan qardaş Türkiyəyə və şəxsən cənab Ərdoğana meydan oxumaqdadır...

**"Erməni quyruğu" deputat Karo Paylan qardaş Türkiyəyə və şəxsən cənab Ərdoğana meydan oxumaqdadır. Dəfələrlə düşmən niyyətlərlə İrəvana və hətta uydurma "DQR"-ə gedib-gəldiyi kifayət deyilmiş kimi, bir az da irəli gedir.**




Bu sözləri özünün facebook səhifəsində "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev yazıb. A.Quliyev daha sonra yazır:

-2013-cü ilin martından qardaş ölkənin daxili siyasətində əsasən ziyanlı rol oynamış bədnam "kürd açılımı" layihəsinin (bu layihənin bəyan edildiyi həmin gün Əskişəhərdə idim və xəbəri həqiqətən şok içində qarşıladım, "bu layihəni qardaş ölkəyə kim sırıdı "deyə soruşdum) açdığı imkanlar hesabına HDP-dən Böyük Millət Məclisinə deputat seçildi. Bu "ilan" əlavə olaraq böyük bir zəhər tuluğu ilə təmin edildi...Uydurma "erməni genosidinin"açıq və həyasız təbliğatçılarından biridir.. İndi Ərdoğanın özünə də zərbələr vurmağa başlayıb. Cumhurbaşqanı bu günlərdə deyib ki,"qılıncımızın altından səyirdib çıxan terrorçulara da aman verməyəcəyik"... -"Qılıncımızın altından səyirdib çıxanlar" ifadəsi işlətməyin, bu ifadə 1915-ci ildə qılıncınızın altından səyirdib çıxan ermənləri xatırladır"... Bu isə həmin "erməni quyruğunun" cənab Ərdoğana cavabıdır....

2013-cü ildə bu şeyləri sanki öncədən görürdüm...

**Aydın Quliyev Azər Həsrətə qardaşı Xələf bəyin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!**




## Prezidentin videokonfransda "sədrlik dövründə fəaliyyət qrafikimiz var" sözləri təsdiqlənir - Hikmət Hacıyevdən yeni xəbər...

**Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyevin təşəbbüsü ilə qurumun Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVİD-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilən zaman ölkə başçısı Azərbaycanın sədrlik dönəmi üçün fəaliyyət qrafikinin olduğunu bildirdi:"Əlbəttə, bu formatda bir görüş digər təşkilatlar - BMT, ÜST tərəfindən diqqətdən kənarda qala bilməzdi. Çünki Qoşulmama Hərəkatının üzvləri onların əsas üzvlərindəndir. Ona görə də, bu təşkilatların görüşdə iştirak etməsi onlar üçün çox vacib idi".**

Tədbirin əhəmiyyətli olmasının digər səbəbi isə onun fövqəladə tədbir olmasında idi. Təşkilatın tarixində ilk dəfə olaraq bu tədbir onlayn və böhranlı vəziyyətin müzakirəsi ətrafında keçirilirdi. Tərəflər də bu təşəbbüsünə dərhal cavab verdilər. Cənab Prezidentin də qeyd etdiyi kimi, baxmayaraq ki, Azərbaycan həmin təşkilata sədrlik etdiyi zaman başqa tədbirlərin keçirilməsi nəzərdə tutuluraq, müəyyən qrafik tərtib olunub. Lakin pandemiya dünyadakı vəziyyəti və dünya reallıqlarını dəyişib. Azərbaycan dərhal təşkilatın gündəliyində dəyişiklik edib və həmin bu görüşü keçirib. Bu tədbirin keçirilməsinə də hərəkata üzv ölkələr dəstək nümayiş etdiriblər. Bu isə onu göstərir ki, Azərbaycanın təşəbbüsü yerində idi və böyük əhəmiyyət kəsb edir.

Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin rəhbəri, Prezidentin köməkçisi Hikmət Hacıyev artıq bu istiqamətdə işlərə start verildiyini bildirib:"Qoşulmama Hərəkatı çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə İşçi Qrup yaradılıb. Bu İşçi Qrupun qarşısında bir neçə vəzifə var. Birinci vəzifə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin toplantısının keçirilməsidir". PA rəsmisi bildirib ki, artıq səhiyyə sahəsində əməkdaşlığa, müxtəlif tibbi protokol və alqoritmlərin bölüşülməsinə, təcrübə mübadiləsinə ehtiyac vardı:"Qarşıdan gələn dövr ərzində, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tərkib hissəsi olaraq, Dünya Səhiyyə Assambleyası baş tutacaq. O çərçivədə, Prezident İlham Əliyevin tapşırığından irəli gələrək, Azərbaycan aidiyyəti üzrə səhiyyə nazirlərinin toplantısını keçirəcək. Bu istiqamətdə real işlər gedir, Qoşulmama Hərəkatı daxilində prosedurlardan çıxış edilərək dövlətlərlə razılaşdırılır".

Bu prosesi ölkə başçısının xüsusi qrafikimizin olması ilə bağlı səsləndirdiyi fikrin təsdiqi saymaq olarmı? Əvvəla bu, Azərbaycanın artan nüfuzundan xəbər verir və pandemiya ilə bağlı ilk zirvə görüşü deyil. Qoşulmama Hərəkatının 40-a yaxın üzvünün dövlət və hökumət başçılarının bu zirvə görüşündə iştirakı göstərir ki, Azərbaycan dünyada söz sahibidir. Azərbaycan artıq milli və regional mövqedən yox, dünyada qəbul edilən bir dövlət kimi öz sözünü deyir. Azərbaycan Qoşulmama Hərəkatına sədrlik müddətində təşkilatın prinsiplərinə sadiq qalaraq, qurumun beynəlxalq münasibətlər sistemində rolunun daha da artması, o cümlədən Azərbaycanla üzv ölkələr arasında əlaqələrin daha da inkişaf etdirilməsi, milli maraqlarının təmin olunması istiqamətində ciddi addımlar atır. Təbii ki ölkəmizin BMT-dən sonra dünyanın ən böyük ikinci beynəlxalq təşkilatına sədrlik etməsi ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin möhkəmlənməsinə xidmət edir. Zirvə görüşündə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir daha diqqətə çatdırdı ki, Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, hərəkatın qəbul olunmuş sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürüb. Qoşulmama Hərəkatının bütün üzv dövlətləri də bu təşəbbüsü yekdilliklə dəstəkləyiblər. Bu Zirvə görüşündə cənab İlham Əliyev Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirlər barədə məlumat verərək vurğuladı ki, pandemiya dövründə əsas məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazır olduğunu bəyan etdi. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Qoşulmama Hərəkatında növbəti dəfə ciddi uğurlara imza atdı. Artıq görünən budur ki, Azərbaycanın görüşdə anonsunu verdiyi qrafikə uyğun tədbirlərin həyata keçirilməsinə start verilib. Səhiyyə nazirlərinin iştirakı ilə görüşün keçirilməsi ilə bağlı əldə olunan razılaşma ölkəmizin verdiyi vədlərə ciddi əməl etdiyinə dair daha bir sübut sayıla bilər.

*Məhəmmədəli QƏRİBLİ*

# Türk Ticarət Evi, Birgə İnvestisiyalar Fondu - Türk dünyasında İlham Əliyevin yeni təşəbbüsləri...

### *Rəşad Həsənov: "...kifayət qədər kompakt bir ərazini əhatə edirlər ki, bu da iqtisadi və ticari münasibətlərin..."*

**Məlum oluğu kimi, mayın 6-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv və müşahidəçi ölkələrin iqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında müzakirələri baş tutub.**



### *"...müsbətə doğru dəyişikliklərə gətirib çıxara biləcək"*

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, videokonfransın məqsədi aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və sədrliyilə videokonfrans formatında keçirilmiş Türk Şurasının fövqəladə Zirvə görüşündə dövlət başçıları tərəfindən qaldırılan məsələlərin icrası üçün birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi olub.

Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyilə keçirilən videogörüşdə tərəfdaş ölkələrdə mövcud iqtisadi vəziyyət, COVID-19 pandemiyasının mənfi sosial-iqtisadi təsirlərinə qarşı birgə təkliflərin və praktik tədbirlərin hazırlanması, həmçinin, postpandemiya dövründə aidiyyəti sahələr üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

M.Cabbarov üzv dövlətlər arasında ikitərəfli sərbəst ticarət haqqında sazişlərin yaratdığı üstünlüklərdən səmərəli istifadə edilməsi, elektron ticarətin inkişafı məqsədilə Türk Şurası dövlətləri arasında elektron imzaların qarşılıqlı tanınması üçün tədbirlərin görülməsi, Türk Ticarət Evinin, həmçinin, Türk Şurası çərçivəsində üzv ölkələrdə mövcud sərhəd və tranzit rejimlərinin kataloqunun hazırlanması, eləcə də nəqliyyat və tranzit rejimində hər hansı təxirəsalınmaz və ya planlaşdırılan dəyişiklik barədə üzv dövlətlərin məlumatlandırılması, həmçinin, yaxın gələcəkdə ölkələrimizdə malların və prosedurların izlənilməsinə imkan verən onlayn məlumat mübadiləsi sisteminin yaradılmasını təklif edib.

Mikayıl Cabbarov üzv ölkələrdə ticarət və investisiyalara mənfi təsirin aradan qaldırılması istiqamətində Türk Şurasının dövlət başçılarının keçirdiyi fövqəladə sammit zamanı Türk Ticarət və Sənaye Palatasının fəaliyyətinin təşviqi və Birgə İnvestisiya Fondunun yaradılması məsələsini xatırladaraq, belə bir fondun yaradılmasının qarşılıqlı investisiya imkanlarını artırmaqla ölkələrimizdə sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafına, yeni iş yerlərinin yaradılmasına, innovasiyaların dəstəklənməsinə, son nəticədə ölkələrin ümumi iqtisadi və sosial inkişafına geniş təkan verə biləcəyini bildirib. Nazir Bakı şəhərində yerləşməklə Birgə İnvestisiya Fondunun yaradılmasına Azərbaycan tərəfinin hər cür dəstək göstərməyə hazır olduğunu bildirib.

O, həmçinin, rəqəmsal iqtisadiyyatdan danışarkən cari ilin əvvəlində Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin filialının Azərbaycanda yaradılması barədə qərar qəbul edildiyini xatırladıb və Mərkəzin fəaliyyətindən qardaş ölkələrin də faydalana bilməsi, Mərkəzin regional əhəmiyyət kəsb etməsi üçün zəruri tədbirlərin görüləcəyini vurğulayıb.

Prezident İlham Əliyevin təşəbbüsü əsasında Azərbaycanın türk dövlətləri ilə birgə İnvestisiya Fondunun yaradılması, Türk Ticarət Evi açılması, elektron imzaların qarşılıqlı tanınması və s. təkliflərini şərh edən tanınmış iqtisadçı Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan dövlətinin bu təkliflərinin ümumtürk iqtisadiyyatının inkişafına böyük faydası var: "Bu təkliflərin həyata keçirilməsi üçün kifayət qədər imkan var. Burada dil yaxınlığı da əsas məqamlardan biridir. Siyasi idarəetmənin bir-birinə yaxın olması ortaya çıxan problemlərin, çətinliklərin həlli ilə bağlı prosesləri qüvvətləndirmək üçün imkanlar yaradır. Eyni zamanda da türkdilli ölkələrin əhəmiyyətli bir qismi keçmiş dövrlərdə SSRİ-nin tərkibində olduqları üçün, təxminən bənzər iqtisadi inkişaf yolunu keçmiş ölkələrdir. Həmçinin də, digər tərəfdən, kifayət qədər kompakt bir ərazini əhatə edirlər ki, bu da iqtisadi və ticari münasibətlərin daha effektiv təmin edilməsi üçün şərait yaradır. Bu baxımdan, investisiya axınlarının cəlbediciliyinin artırılması və imkanlarının sadələşdirilməsi, vətəndaşlıqla, yaxud müvəqqəti yaşamaqla, işləməklə bağlı qeydiyyat prosedurlarının, digər tərəfdən, tranzit daşımalar zamanı ticarət əlaqələri üzrə xərclərin azaldılması məqsədilə tariflərin, gömrük keçid prosedurlarının sadələşdirilməsi təklifləri çox müsbət effekt verəcək. Eyni zamanda da bunlarla yanaşı, təklif olunduğu kimi, elektron imzaların, sənədlərin qarşılıqlı tanınması baxımından da düşünürəm ki, bu, növbəti dövrlərdə bu ölkələrin iqtisadi inteqrasiyasında, postpandemiya dövründə iqtisadiyyatların bərpa olunmasında kifayət qədər ciddi dəyişikliyə təkan verə biləcək.

Bundan başqa, nəzərə almaq lazımdır ki, bu ölkələr orta istehlak gücü, orta inkişaf səviyyəsi olan ölkələrdir. Bu isə o deməkdir ki, Azərbaycanda istehsal olunmuş məhsulların bu ölkələrin bazarlarında özünə yer etməsi potensiali nisbətən daha realdır, nəinki inkişaf etmiş bazarlarda. Nəzərə alsaq ki, son bir neçə ildə ixracın diversifikasiya edilməsi və ölkəyə valyuta daxilolmalarının şaxələndirilməsi əsas hədəflərdən biridir, bu baxımdan da türkdilli ölkələrin iqtisadiyyatlarının birləşdirilməsi, yaxud da inteqrasiyası istiqamətində istənilən təşəbbüs müsbətə doğru dəyişikliklərə gətirib çıxara biləcək".

*İradə SARIYEVA*

# Rüşvətlə tutulan icra başçılarının arxasından "tayfa-klan" məmurlar qrupu çıxır - oğul, qız, qardaş, əmi...

**Bir sıra rayonların icra başçıları ilə bağlı həyata keçirilən əməliyyat tədbirlərindən sonra maraqlı məlumatlar üzə çıxır. Bəlli olur ki, korrupsiya, rüşvət əməlinə görə həbs edilən icra başçılarının övladları və digər yaxın qohumlarının əksəriyyəti mühüm dövlət postlarında işləyiblər.**




Bu xüsusda bir neçə misal da çəkə bilərik. Həbs edilən Ağstafa Rayon İcra Hakimiyyətin sabiq başçısı Nizaməddin Quliyevin oğlu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinində işləyib. Ağstafanın həbs edilən icra başçısının digər oğlu Ramin Quliyev Nərimanov Rayon Məhkəməsinin hakimi olub. İmişlinin sabiq icra başçısı Vilyam Hacıyevin oğlu Məhəmməd Hacıyev əvvəllər Qaradağ, Nərimanov rayon prokurorluqlarında çalışıb, hazırda isə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində fəaliyyətini davam etdirir. Vəzifəsindən sui-istifadə edərək korrupsiya əməlinə yol verən bu şəxslərin övladlarının Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində işləməsi, istər-istəməz ortaya belə bir sual çıxarır:"Belələrinin uzun illər bu cür neqativ işlərlə məşğul ola bilməsinin səbəblərindən biri də yaxın ətraflarının mühüm postlara yerləşdirilməsi ola bilərmi? Ümumiyyətlə, mühüm vəzifələrdə bu tayfalaşmanın, klanlaşmanın qarşısını necə almaq olar?"

***Samir Adıgözəlli:** "Ümumiyyətlə, vəzifəli adamların ətraflarında qohumlarından ibarət "təhlükəsizlik buferi" düzəldilməsinə yol vermək olmaz"*

İctimai Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, icra başçılarının həbsi bir sıra reallıqlara işıq saldı:"Əvvəllər də hamı bilirdi ki, icra başçıları rüşvət alır, əhaliyə yerlərdə əziyyət verirlər. Ancaq onlarla bağlı hər hansı hüquqi ölçünün götürülməməsi vətəndaşlarımızda bəzən narazılıqlara səbəb olurdu. Prezident dəfələrlə icra başçılarına xəbərdarlıq etdi ki, normal işləsinlər. Ancaq biz nəyi görürük? Hər dəfə icra başçıları ilə bağlı nümayiş olunan əməliyyat çəkilişlərini görəndə mən utanıram. Bu gün İmişlinin icra başısı Vilyam Hacıyevin evindən çıxan pulun miqdarı hamını təəccübləndirdi. Bunun aldığı mülkləri, xaricə çıxardığını qoyuram bir qırağa. Görün, təkcə evindən necə milyon dollar və avro çıxır. Bunlar talançılıqla məşğul olublar. Siz fikir verin, evində o miqdarda pul olan adam nələrə qadir olmaz? Fikir veririk ki, həmin icra başçılarının övladlarının çoxu mühüm postlara yerləşdirilib. Təbiidir ki, istənilən bir siqnal olanda onlar atalarını məlumatlandırıblar, əlaqələrindən istifadə edib neqativlikləri ört-basdır ediblər. Yalnız övladları onların klanına aid edilmir. Eyni zamanda bir çoxlarının arasında qudalıq əlaqələri var. Çoxunun qardaşları, digər yaxın qohumları da yaxşı postlara yerləşdirilib. Qanunla hərə öz əməlinə cavab verməlidir. Ancaq burada söhbət oturuşmuş cinayətkar klandan gedir.

Əminəm ki, bu cür cinayətlərə yol verən icra başçıları ətrafında araşdırmalar aparılsa, onların yaxın ətraflarının da bu və ya digər dərəcədə cinayətlə əlaqələri üzə çıxacaq.

Bir çox dövlət qurumlarında işə qəbul testlədir. Görünür, icra başçıları həmin maneələri də aşıb, ovladlarını istədikəri yerlərə yerləşdirə biliblər. Bu istiqamətdə də ciddi araşdırmalar aparılmalıdır. Ümumiyyətlə, vəzifəli adamların ətraflarında qohumlarından ibarət "təhlükəsizlik buferi" düzəldilməsinə yol vermək olmaz. Məhz bu cür amillər sonda belə acı nəticələrə gətirib çıxarır".

***Məhəmmədəli QƏRİBLİ***

# "Başçı rüşvətxorluğu" Azərbaycanda icra hakimiyyətləri institutunun nüfuzuna sarsıdıcı zərbə kimi - yeni institutlar olacaqmı...

**İcra hakimiyyəti dövlət idarəçiliyinin əsas qollarından biridir. Ölkə başçısı tərəfindən təyin edilən icra başçıları bir çox səlahiyyətlərə və geniş hüquqlara malikdir. Son zamanlar ölkəmizdə baş verən hadisələrin fonunda icra hakimiyyətlərinin bir struktur kimi ləğvi məsələsi gündəmə gəlib.**



Bu iddianı dəstəkləyənlər icra başçıları ilə bağlı baş verən biabırçılıqları əsas gətirib, həmin quruma olan etimadın tam itdiyini qeyd edirlər. Hətta bununla bağlı ləğv edilmiş MTN nümunəsini də misal göstərirlər. Ümumiyyətlə, bütün baş verənlərin fonunda icra qurumlarının ləğvi, onların yeni strukturlarla əvəzlənməsi mümkündürmü?

"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin sözlərinə görə, yerli icra hakimiyyəti orqanlarında geniş islahatlar həyata keçirilməlidir:"Hazırkı yerli icra hakimiyyəti forması onun fəaliyyətlərini real həyata keçirməyə mane olur. Çünki indiki yerli RİH başçıları özlərini rayonlarda mütləq hakim hesab edirlər. Həmin mütləq hakimiyyətin isə ziyanı da olur və qüsurlara gətirib çıxarır. Çünki əhalinin bu qurumlara inam və etibarı zəifləyir. İcra başçıları həddindən artıq uzun müddət vəzifədə qalırlar. Uzun müddət bir yerdə qalmaq da sabit əlaqələrin yaranmasına gətirib çıxarır. Eyni zamanda, bu həm də korrupsiya sxemlərinin yaranması imkanlarını genişləndirir. Digər tərəfdən, bələdiyyələrlə yerli icra hakimiyyətlərinin funksiyaları üst-üstə düşür. Ona görə də onlardan birinin ləğvi mütləq şərtdir, vacibdir. Belə olan halda da ərazi üzrə icra nümayəndəliyinə ehtiyac yoxdur və bələdiyyənin saxlanması çox vacibdir. Çünki hesabatlılıq sistemi bələdiyyələrdə olduğu üçün onu real icra məsələsinə də keçirmək mümkün olacaq. Bələdiyyələr real icra səlahiyyətlərinə malik olanda, şübhəsiz ki, vətəndaşların onlardan nəsə tələb etmək imkanları olacaq. Ona görə, artıq bu məsələlərə diqqət yetirməyin vaxtı gəlib çatıb".

***Əliməmməd Nuriyev:** "Belə olan halda, ərazi üzrə icra nümayəndəliyinə ehtiyac yoxdur və bələdiyyənin saxlanması çox vacibdir"*

***Rəşad Bayramov:** "15 regional struktur kifayət edər ki, bütün ölkə boyu icra hakimiyyətlərinin vəzifələrini həyata keçirmək mümkün olsun"*

Azərbaycan Milli İstiqlal Partiyasının sədr müavini Rəşad Bayramov qəzetimizə bildirdi ki, rayon və şəhər icra hakimiyyətlərinin adının ləkələnməsi aparılan həbslərlə bağlı deyil:"Həbslərdən əvvəl də bu strukturun adı müvafiq ərazi vahidlərində korrupsiya, rüşvətxorluq, dövlət əmlakının mənimsənilməsi, yerli sahibkarların sıxışdırılması və digər bir sıra neqativ hallarla bağlı ləkələnmişdi. Həbslərdən və ya yerli icra hakimiyyətlərində aparılan kadr islahatlarından asılı olmayaraq bu qurumların səlahiyyətlərinin məhdudlaşdırılmasına ehtiyac var. İcra hakimiyyətlərinin ləğvi tədricən həyata keçirilə bilər. Düşünürəm ki, ilk növbədə bütün rayon və şəhərlərdə icra hakimiyyətlərinin olmasındansa, regional strukturların yaradılması daha məqsədəuyğun olardı. Misal üçün Sumqayıt, Quba, Şamaxı, Şirvan, Lənkəran, Beyləqan, Bərdə, Göyçay, Qəbələ, Yevlax, Gəncə, Şəki, Şəmkir olmaqla 13 regional strukturun yaradılması və ətraf rayonların da bu strukturlara tabe etdirilməsi effektli ola bilər. Beləliklə, ölkədə Bakı və Naxçıvan MR də daxil olmaqla 15 regional struktur kifayət edər ki, bütün ölkə boyu icra hakimiyyətlərinin vəzifələrini həyata keçirmək mümkün olsun. Növbəti mərhələdə isə həmin icra strukturları rəhbərlərinin səlahiyyətləri mərkəzi icra hakimiyyətinin təmsilçisi olmaq səviyyəsində məhdudlaşdırılmalıdır. Bələdiyyələrə yerli hakimiyyət orqanları statusu verilməli, sakinlər yerlərdə hakimiyyətin formalaşdırılmasında iştirak etməlidirlər. Bakı, Gəncə və bələdiyyəsi olmayan digər böyük şəhərlərdə şəhər bələdiyyələrinin yaradılması haqqında qanunlar olmalı, yerlərdə mülki cəmiyyət institutlarının yaradılmasında üçün xüsusi dövlət proqramı həyata keçirilməlidir. Bütün bunlar üçün isə konstitusiya dəyişikliklərinin həyata keçirilməsinə ehtiyac var".

***Məhəmmədəli QƏRİBLİ***



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Qarabağda yeni savaşın işartıları: Azərbqycan rəsmilərinin cəbhə bölgəsinə səfəri İrəvanda təşvişi pik həddə çatdırdı...

**Əraziləri işğal altında qalan Azərbaycan ordusunu daim döyüşə hazır vəziyyətdə saxlayır və Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli ni də istisna etmir. Bu fonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Prezident köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyətinin cəbhə zonasında bir neçə gündür davam edən səfərləri də diqqətdən yayınmır.**

Onların ön xətdə yerləşən hərbi hissələrə baş çəkməsi, burada döyüş hazırlığı səviyyəsini yoxlaması, düşmən mövqelərini müşahidə etmələri qarşı tərəfdə artıq böyük narahatlıq yaradıb.

Ermənistanda indi belə fikirlər daha çox aktuallıq qazanmağa başlayır ki, Azərbaycan yeni Qarabağ savaşına hazırlaşır və bunun üçün də əlverişli şərait yetişdiyini düşünür. İrəvanın narahatlığını artıran əsas məqamlardan biri də Azərbaycan rəsmilərinin açıqlamalarıdır. Məsələn, elə bu günlərdə xarici işlər naziri Elmar Məmmədyarov yenidən Azərbaycanın müharibə etmə hüququ barədə danışdı:"Azərbaycan münaqişənin həlli ilə bağlı danışıqları dəstəkləyir və həmişə sülh yolu ilə həll olunma imkanları görünənədək danışıqları davam etdirəcəyimizi bildirmişik. Bununla yanaşı, həm dövlətimizin ali qanunu, həm də beynəlxalq hüquq nəzərə alınmaqla Azərbaycanın BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında, Paris Xartiyasının və BMT Təhlükəsizlik Şurasının məlum qətnaməsində təsbit edilmiş beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bütün vasitələrlə ərazi bütövlüyünü bərpa etmək hüququna sahibdir". Müdafiə naziri Zakir Həsənov da öz növbəsində bu günlərdə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı ilə görüş keçirərək, düşmənin təxribat addımlarının şiddətlənməsi səbəbindən hərbi əməliyyatların yenidən başlama ehtimalının kəskin artdığını bildirib. Bunun ardınca Azərbaycan generalları, yuxarıda qeyd olunduğu kimi, bir neçə gündür cəbhə xəttindədir və burada ordunun döyüş hazırlığını yoxlayırlar. Ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert Abuzər Əbilov da bu xüsusda maraqlı açıqlamalar verir. O qeyd edir ki, hərbi rəhbərliyin cəbhə bölgəsinə səfərləri zamanı şəxsi heyətin təchizatı, təminatı, döyüşə hazırlığı, silah-sursatın, texnikanın vəziyyəti yoxlanır, yerində tapşırıqlar verilir. Eyni zamanda, ön xəttə lazım və tələb olunan silah-sursat, texnika göndərilir. Generalların səfər zamanı cəbhəboyu zonada tikintisi yekunlaşmaqda olan hərbi hissədə olduqlarını xatırladan hərbi ekspert vurğulayıb ki, hərbi hissələrin dəyişdirilməsi, yenidən qurulması, tikilməsi, yeni hərbi hissələrin açılması önəmli addımdır:"Politoloqların gəldiyi qənaətə görə, bugünkü hərbi-siyasi vəziyyət faktiki olaraq həddindən artıq gərgindir. Ermənistan tərəfi ilə danışıqlar heç bir nəticə vermir və bunun son nöqtəsi, dirəniş yeri çatıb. Ermənistanın baş naziri görüşlərdə başqa səpkidə, görüşlərdən çıxıb Ermənistana çatandan sonra tamam başqa formada danışır. Bu insanın qeyri-adekvatlığı onun ölkəsi ilə bundan sonrakı danışıqları heçə endirir. Danışıqlar heç cür sonsuz ola bilməz. Dünyanın bir sıra ölkələrində böyük hərbi konfliktlər olub, yaxın tarixi götürsək, Yuqoslaviya fonunda danışa bilərik. Döyüşlər getsə də, müharibələr olsa da, bütün bu proseslər də danışıqlar nəticəsində dövlətlərin bir-biri ilə razılığa gəlməsi ilə yekunlaşdı. Ancaq 30 ildir ki, Ermənistanla Azərbaycan danışır, ATƏT-in Minsk Qrupunun həmsədrləri vasitəçilik edirlər, ancaq Azərbaycan üçün müsbət dəyişiklik yoxdur. Son günlər ermənilər də başa düşürlər ki, yaxın vaxtlarda müharibənin başlaması qaçılmaz olacaq". A.Əbilov deyib ki, hərbi hissələrdə əsgər yataqxanalarının, texniki sahələrin, parkların və inzibati binaların yenidən qurulması mühüm hadisədir:"Köhnədən qalan hərbi hissələrdə olan tikililər bugünkü hərbi texnikaya, əsgərlərin sayına, ümumilikdə müasir orduda olan tələblərə cavab vermir. Bunların dəyişdirilməsi, yenidən qurulması, yeni hərbi hissələrin açılması önəmli addımdır. Bu işlər görülməsə, sözsüz ki, uzaq məsafədə olan hərbi hissələrdə döyüşlər vaxtı şəxsi heyəti avtomobillərlə, dəmiryollarla cəbhə bölgəsinə çatdırmaq bir az çətin olacaq və vaxt aparacaq. Ancaq müharibədə vaxt hər şeyi həll edir. Ona görə də cəbhə zonasında olan hərbi hissələrdə yenidənqurma, abadlaşdırma işləri görülür, yeni hərbi hissələr tikilib istifadəyə verilir".

Yaxın tezlikdə Ermənistan münaqişənin həlli istiqamətində əməli addımlar atmayacağı təqdirdə savaşın qaçılmaz olacağını beynəlxalq ekspertlər də xüsusi olaraq vurğulayır. Məsələn, rusiyalı hərbi analitik Vladimir Yevseyev baş verənlərin Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatları yenidən başlada biləcəyini qeyd edir. Onun sözlərinə görə, danışıqlar varsa, bu, münaqişəni hərbi yolla davam etdirmək planlarının ortadan qalxdığı demək deyil:"Düşünürəm ki, hərbi həll variantları mövcuddur və lazımi anda istifadə edilə bilər. İndi bunun nə dərəcədə yetişdiyini deyə bilmərəm, amma hesab edirəm ki, danışıqlar tezliklə nəticə verməsə, savaş qaçılmaz olacaq. Rusiya Federasiyası həmsədrinin aktiv danışıqlar barədə açıqlamasından sonra tərəflərin də çoxsaylı açıqlamaları oldu. Bu açıqlamalar davam edən danışıqların nə dərəcədə əsaslı olması və qarşılıqlı razılıq əldə edilməsi məsələsinə bir qədər aydınlıq gətirdi. Belə bir razılığın olmadığını iddia etməklə Ermənistan savaşa əlverişli zəmin yaradır". Onun sözlərinə görə, erməni tərəfinin ritorikasının daxili siyasi istehlak üçün nəzərdə tutulduğu diqqətə alınmalıdır. Çünki hökumət öz strategiyasının uğur qazandığını, müharibənin yenidən başlama şansının çox az olduğunu göstərməyə çalışır:"Ancaq müharibə təhlükəsi var. Bütün son açıqlamalar bunun belə olduğunu sübut edir".

Öz növbəsində, digər ekspert Aleksandr Xramçıxin baş verənlərin yeni olmadığını bildirib. "Hərbi xadimlər, generallar, müdafiə nazirləri belə bir vəziyyətdə fikirlərini daha sərt bildirdikləri zaman başqa bir hal ortaya çıxır. Bu onların işidir, onlar hərbi ritorikanı tamamlayırlar, diplomatın işi isə danışıqlar aparmaqdır və diplomatlar, ümumiyyətlə, münaqişənin danışıqlar yolu ilə həll olunmasının tərəfdarıdırlar. Azərbaycan üçün vacib olan ərazi bütövlüyüdür, Ermənistan üçün isə öz müqəddəratını təyinetmə hüququdur, bu, ümumilikdə formalaşmış bir vəziyyətdir. Başa düşürük, tərəflər bunlardan irəli gələn bir çox məsələdə razılığa gələ bilmir. Razılaşmanın nə vaxt əldə edilə biləcəyini və ya bu baş verməd ikdə müharibə olacağını ehtimal etmək çətin deyil. Razılaşma mümkün olmadığı üçün ikinci variantın ola biləcəyini düşünürəm. Amma bu zaman Ermənistan Azərbaycanın gücünü mütləq nəzərə almalıdır".

Rusiyalı hərbi ekspert Aleksey Xlopotov da savaşı istisna etməyənlərdəndir:"Azərbaycanın bütün təmas xəttində ermənilərin müdafiəsini məhv etmək üçün qüvvə və vasitələri var. Qarabağ ərazisində silahlı müqavimət dayandırıldıqca, hərbi hissələr Ermənistan sərhədlərinə çəkiləcək". Rusiyalı ekspertin sözlərinə görə, bu qaçılmaz reallıqdır və bu reallıq Nikol Paşinyanı ayıltmalıdır:"Azərbaycanın hərbi gücdən istifadə etdiyi təqdirdə nələr olacağını anlayan İrəvan danışıqlar masasına əyləşərək, Lavrovun mərhələli həll variantını qəbul etməlidir". Ermənistan parlamentinin "Mənim addımım" fraksiyasının deputatı Tatevik Hayrapetyan da Bakının savaşa hazır olduğunu və bu xüsusda rəsmi fikirlərin sayını artmasını ölkəsi üçün təhlükəli hal adlandırıb:"Azərbaycan müdafiə naziri Zakir Həsənovun son bəyanatı, xüsusilə Rusiya xarici işlər naziri Sergey Lavrovun bəyanatı və bunu dərhal izləmiş Ermənistan Xarici İşlər Nazirliyinin şərhi ilə əlaqəlidir". O açıqlamasında qeyd edib ki, bu bəyanat əsasən Ermənistana yönəlib:"Bizim üçün heç vaxt sirr olmayıb ki, Azərbaycan hərbi əməliyyatların yenidən başlamasına dair öz məqsədlərindən hansısa anda imtina etmək niyyətində deyil".

Azərbaycanın bu mərhələdə müharibə əməliyyatlarına gedəcəyi ilə bağlı verilən suala erməni deputat cavab verib ki, hazırkı vəziyyətə əsasən, Azərbaycanın müharibəyə gedəcəyi ehtimalı az deyil. Bu durumda o da Ermənistan üçün ciddi problemlərin yaranacağını vurğulayır. Bu məsələdə onun haqlı olması isə heç kimə sirr deyil. Çünki Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrdə yüksəlişə nail olması, həmçinin iqtisadi inkişaf dinamikasına görə bölgədə lider dövlətə çevrilməsi ordu quruculuğunda ötən illərdə kifayət qədər müsbət irəliləyişlərə səbəb olub. Ordumuzun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi vacib inkişaf istiqamətləri kimi diqqəti çəkir. Ermənistanın özündə belə etiraf edilir ki, Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar indi Qarbağ münaqişəsinin həllinə təsir edən əsas faktorlardandır. Azərbaycanın məhz bu durumda Dağlıq Qarabağ münaqişəsini bütün variantlarda, o cümlədən hərbi müstəvidə həll etmək imkanı var. Elə Ermənistan da bundan müvafiq nəticə çıxarmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Ermənistanın yeni xarici siyasət kursu - Paşinyan Ermənistanı "dövlət saymayanlara" müharibə açdı...

**Ermənistan öz imkanlarını nümayiş etdirərək tamamilə yeni xarici siyasət konsepsiyası qurur. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışında deyib. "Artıq Ermənistan "üçüncü dərəcəli ölkə" statusu ilə barışmaq niyyətində deyil və özünü fikri ilə hesablaşmağın lazım gəldiyi dövlət kimi göstərəcək"- deyən erməni baş nazirin sözlərinə görə, hökumət Ermənistanın xarici tərəfdaşlarından analoji münasibət tələb edir, belə mövqenin müəyyən risqlər yaratdığını etiraf etsə də hökumət geri çəkilmək fikrində deyil:**



## *Fərəc Quliyev: "Onların səsini kəsmək üçün həm rəsmi qurumlarımız, həm də siyasi partiyalarımız fəallaşmalıdır"*

"Biz qərar verməliyik, başımızı əlimizlə örtməliyik ki, bizi vurmasınlar, yoxsa lazım olduğunda zərbəni qəbul edib, cavab zərbəsi endirməliyik".

Ermənistanın yeni xarici siyasət xətti yürütməyə imkanı varmı, yoxsa bu nəyəsə hesablanmış bir blefdir? Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə addımları atmaq üçün Ermənistanın imkanları sıfırın altındadır: "Azərbaycanın siyasi mühitində belə vəziyyət yaranıb ki, bəzi adamlar şəxsi mənafelərini milli mənafedən üstün tuturlar. Əsl həqiqətləri söyləmək istəmirlər. Ermənistanın arxasında dayanan qüvvələrin onlara verdiyi dəstəyin hesabına Paşinyan belə danışır. Bunların özü parazit olduğu kimi, siyasətləri də parazitdi. Hamı gözləyir ki, postpandemiya dönəmində yeniləşmə olacaq. Ermənistan düşünür ki, arxasında duran qüvvələr bölgədə yeni situasiya yarada bilər və həmin situasiyadan qabağa düşüb bəhrələnmək istəyir. Azərbaycan tərəfi bunun qarşısını almaq üçün ortaya konkret mövqe qoymalıdır. Bildirməlidir ki, pandemiyadan sonrakı dönəmdə biz status-kvo ilə razılaşmamalıyıq. Bəyan etmək lazımdır ki, Ermənistan kimi ölkələr virusdan da təhlükəlidir. Ermənistana qarşı fərqli mövqenin qoyulacağı nəzərə çatdırılmalıdır. Biz artıq bəyanatların, qətnamələrin icra mexanizminə çalışmalıyıq. Hətta yeri gəlsə bəyan etməliyik ki, biz də xarici siyasətimizə müəyyən korrektələr edə bilərik. Paşinyan arxayın olur ki, indiyə qədərki dönəmdə cəzasızlıq vardı. BMT və digər nüfuzlu qurumların bəyanatları həyata keçmir, bundan sonra status-kvonu saxlamaq üçün ortaya yeni bəhanə atır. Ermənistan düşünür ki, yeni dünya düzəni formalaşacaq və orda müharibəyə icazə verilməyəcək. Ermənistanda vəziyyət çox pisdir. Verilən bəyanat həm də daxili auditoriya üçün nəzərdə tutulub. Bildirmək istəyirlər ki, güya onlar nəinki vəziyyətdən çıxacaq, həttа dünyanın ən güclü dövlətləri sırasına daxil olacaqlar. Yeni dünya düzənində idarə edən və idarə olunan dövlətlərin sırası dəyişəcək.

Bu təbiidir. Ermənistanın blefləri ona hesablanır ki, bunun fonunda önə çıxsın. Ermənistanda o potensial yoxdur. Onların səsini kəsmək üçün həm rəsmi qurumlarımız, həm də siyasi partiyalarımız fəallaşmalıdır. Xüsusilə də BMT-dən sərt şəkildə qətnamələrin icrasını tələb etməliyik. Ermənistana konkret zamanın verilməsini qarşıya qoymalıyıq. Bunları etməsək, Ermənistan öz parazit siyasətini davam etdirəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# "Mən, Vanetsyan və Paşinyan" - keçmiş diplomatlar Paşinyanla döyüşə başladılar...

**Ermənistanın Vatikandakı keçmiş səfiri, tarix elmləri namizədi Mikael Minasyan özünün "Facebook" səhifəsində "Yalanların sonu" seriyasından "Mən, Vanetsyan və Paşinyan: Rədd edilmiş təklif" adlı videomesajın ilk hissəsini yayımlayıb.**



## *Əli Orucov: "Hesab edirəm ki, Paşinyanın bu ifşası onun süqutunu daha da sürətləndirəcək"*

Onun açıqlamalarında Paşinyanın ifşası ilə bağlı bir sıra məqamlar əks olunub. Eyni zamanda, o, Paşinyanın pul ödəmək və Ermənistana gəlməmək təklifini niyə rədd etdiyini izah edib.

Diplomat Artur Vanetsyanla ilk görüşü barədə bunları deyib: "2019-cu ilin fevral ayında Romada Paşinyanın təşəbbüsü ilə Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanla görüşdüm. Yadınızdadırsa, Vanetsyan Nikol Paşinyanın göstərişi ilə Mikael Minasyanla görüşdüyünü elan etmişdi. Beləliklə, A.Vanetsyan mənə zəng etdi, yeri gəlmişkən, onu çox yaxşı tanıyırdım, amma heç vaxt ona yaxın olmamışdım və dost deyildik. A.Vanetsyan zəng edib dedi ki, Romada olduğunuzu bilirəm. İki-üç ay səfir deyildim, amma Romada yaşayırdım. Dedi ki, səninlə görüşmək istəyirəm. Sualıma belə cavab verdi: Nikol Paşinyanın sizin üçün bir mesajı var. "Çox yaxşı" dedim. Romanın mərkəzində, "De Russie" otelində, bir kafedə görüşdük. Özünü tanıtdı, dedi ki, buraya Milli Təhlükəsizlik Xidmətinin direktoru kimi gəlib və Paşinyanın adından danışmaq səlahiyyətindədir. Mən "buyur" dedim. Dedi: sizə bir təklifimiz var. Təklif aşağıdakı kimidir - simvolik bir məbləğ ödəyirsən, şübhəsiz ki, hansısa bir fonda və ya dövlət fonduna necə və harada ödəyəcəyini müzakirə edəcəyik. Mən simvolik məbləği soruşmadım. Bildirdi ki, bundan sonra heç olmasa ilk illərdə Ermənistana gəlmirsən. Sizinlə əlaqəli olan və sizi dinləyən insanların hamısı Paşinyanla mübarizəni dayandırır, siz siyasətdən kənar bir insan olursunuz, həyatınızı Ermənistanın hüdudlarından uzaqda xoşbəxt yaşamağa davam edirsiniz, amma razılaşdığımız andan etibarən bütün cinayət işləriniz dərhal dayandırılır, yaxınlarınızın təqiblərinə son qoyulur. Söhbət atam və dostlarım haqqında gedir. Biz o dəqiqə bir-birimizi tanımayan insanlara çevrilirik, ancaq çox yaxşı dost oluruq".

Videomüraciətində Minasyan Paşinyana niyə "yox" dediyinin səbəbini də açıqlayıb: "Mən Paşinyanın təklifi ilə razılaşmadım, İmtina etdim, ona görə ki, oturub dövlətimin və xalqımın məhv olacağını seyr edə bilməzdim. Məni nə

## *"Həm erməni, həm də dünya ictimaiyyəti onun əsl simasını görəcək"*

çünki xalqımın və vətənimin belə çətin vəziyyətində mən xaricdə yaxşı yaşaya bilməzdim. Mən çoxlarından fərqli olaraq, nəinki proqnoz verdim, həm də yazdım ki, bizi hansı fəlakət gözləyir. Mən yalançı, məsuliyyətsiz və xain insanlarla heç vaxt razılaşa bilmərəm. Bu gün Ermənistan Respublikasında və onun hüdudlarında erməni xalqı ilə bağlı baş verənlər, sadəcə, dövlətə xəyanətdir. Başqa sözüm yoxdur. Xoşbəxt və yaxşı yaşaya bilərəmmi? Əlbəttə, bəli. gözlədiyini bilə-bilə Paşinyana "yox" dedim".

Görünən odur ki, keçmiş diplomat Paşinyanın bütün iç üzünü açıb ortaya qoymağı qarşısına məqsəd qoyub. Diplomatlardan Paşinyana yönəlik bu cür hücumlar isə qarşıdakı dövrdə onu çətin siyasi sınaqlar gözlədiyindən xəbər verir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, məlum açıqlama Paşinyanın daha bir eybəcərliyini ifşa etdi: "Məlum oldu ki, Paşinyan öz rəqiblərini, onu tənqid edənləri hər cür vasitə ilə susdurmağa, yalan üzərində qurduğu hakimiyyətinin ömrünü uzatmağa çalışır. Onun yürütdüyü xarici və daxili siyasət hədə-qorxu, şantaj, rüşvətlə ələalma və sair kimi eybəcərliklədən başqa bir şey deyil. Paşinyanı tənqid etdiyinə görə keşmiş səfiri ələ ala bilməyən baş nazir günahsız insanları incidir, onlardan qisas alır. Bu, vidiomüraciətin hələ ilkin hissəsidir. Davamında biz daha böyük biabırçılıqların şahidi olacağıq. Hesab edirəm ki, Paşinyanın bu ifşası onun süqutunu daha da sürətləndirəcək. Həm erməni, həm də dünya ictimaiyyəti onun əsl simasını görəcək. Eyni zamanda, bu, Ermənistanda dövlət adına hansı çirkinliklərin həyata keçirildiyini bir daha göstərəcək".

***Vidadi ORDAHALLI***

Prezident İlham Əliyev "Mir" televiziya kanalına müsahibə verib. Baki-xeber.com müsahibəni təqdim edir:

# Azərbaycan Prezidenti koronavirusla mübarizə təcrübəsini 150 milyondan çox rusiyalılar auditoriyası ilə bölüşdü - Prezident veteranlara söz də verdi...

**- Hörmətli cənab Prezident, bu müsahibəni almağa imkan yaratdığınıza görə Sizə minnətdarlıq etmək istərdim. Şübhə yoxdur ki, tarixçilər 2020-ci ili koronavirus ili adlandıracaqlar. Sizcə bu necə baş verə bilərdi?**

- İnsanlarımızın sağlamlığını və həyatını qorumaq məqsədilə biz lap əvvəldən məhdudlaşdırıcı tədbirlər gördük. Hesab edirəm ki, tədbirlər özünü doğrultdu. Bu tədbirlər tədricən sərtləşdirildi və son nəticədə biz xüsusi karantin rejiminin tətbiqinə gəlib çatdıq. Bizim bütün resurslarımızın səfərbərliyə alınması, pasiyentlərin layiqincə müalicəsini təmin etmək məqsədilə tibbi preparatların, zəruri avadanlıqların əldə edilməsi üzrə böyük təşkilati iş aparıldı. Qısa müddətdə tibbi maskaların və dezinfeksiyaedici vasitələrin istehsalı üzrə müəssisə işə salındı. Həmçinin yaxın vaxtlarda həkimlər üçün xüsusi geyimlər istehsal edən müəssisə işə salınacaq. Yaxın vaxtda hər birində 200 çarpayı olmaqla 10 yeni xəstəxananın istifadəyə verilməsi planlaşdırılır. Bu, yeni tikinti texnologiyaları - modul tipli texnologiyalardır. Bu günədək 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb, o cümlədən bu yaxınlarda 575 pasiyent üçün nəzərdə tutulan ən müasir xəstəxana açılıb. Həmçinin koronavirusla mübarizəyə cəlb edilən tibbi heyətin sosial təminatı üçün tədbirlər görülüb. Bu kateqoriyadan olan tibb işçilərinin əməkhaqqı müvafiq olaraq 3, 4 və 5 dəfə artırılıb. Yeni laboratoriyalar alınıb. Bu gün laboratoriyaların sayı artıq 23-dür. Bu bizə gündə bir neçə min test keçirmək imkanı yaradır. Ümumilikdə 160 mindən çox test keçirilib və əhalinin bir milyon nəfərinə düşən testin sayına görə Azərbaycan ön sıralardadır.

**- Azərbaycan pandemiya ilə necə bacarır?**

- Görülən bütün tədbirlər, o cümlədən məhdudlaşdırıcı tədbirlər bir məqsəd daşıyıb - vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını təmin etmək və onların həyatını qorumaq. Aprelin 14-dən başlayaraq Azərbaycanda müsbət dinamika müşahidə edilir. Sağalanların sayı yoluxanların sayından çoxdur. Bunun nəticəsində aprelin 27-dən başlayaraq və sonra mayın 4-də karantin rejimi yumşaldıldı. Karantin rejimi mayın sonunadək qüvvədədir. Beləliklə, biz vəziyyətin müvafiq daimi monitorinqini gələcəkdə də davam etdirəcəyik və əgər görsək ki, yumşaltma xarakteri daşıyan tədbirlər yoluxanların kəskin artmasına gətirib çıxarır, o halda məhdudlaşdırıcı tədbirləri yenidən gücləndirməli olacağıq.

**- Bəs Ümumdünya Səhiyyə Təşkilatı bu istiqamətdə Azərbaycanın fəaliyyətini necə qiymətləndirdi?**

- Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun mart ayının sonunda mənə ünvanlandığı məktubda koronavirusla mübarizə işində Azərbaycanın nümunəvi ölkə olduğu bildirilib. İlk növbədə, milli səviyyədə işləməklə biz, həmçinin beynəlxalq birliyin daha sıx birləşməsinə, diqqətin bu probleme cəlb edilməsinə, habelə koronavirusa müqavimət üzrə birgə işlərin gücləndirilməsinə çalışırıq. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədridir. Apreldə və mayda iki sammit keçirildi. Özü də birinci sammit - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammiti, ümumiyyətlə, dünyada bu mövzuya videokonfrans formatında həsr edilən ilk sammit idi. Dövlət və hökumət başçılarının böyük sayda iştirakı ilə bu tədbirlərin uğurlu keçirilməsi nəticəsində biz ümumi bəlaya qarşı mübarizədə vahid yanaşmalar əldə etdik. Eləcə də həm tibbi sahədə, həm də pandemiyanın bütün ölkələrə böyük zərər vurduğu iqtisadi sahədə müxtəlif səviyyələrdə işçi qruplar yaradıldı. Beləliklə, Azərbaycan dünya birliyinin məsuliyyətli və səmərəli üzvü kimi pandemiya ilə beynəlxalq səviyyədə mübarizəyə böyük töhfə verir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatdır və Azərbaycan bu təşkilatda üç il sədrlik edəcək. Qoşulmama Hərəkatının Təmas Qrupunun Sammitinin keçirilməsi təşəbbüsü Hərəkatda çox müsbət qarşılandı. Sammit göstərdi ki, biz səyləri birləşdirməklə bu bəlaya qarşı daha təsirli müqavimət göstərə bilərik. Həmçinin Azərbaycan bir neçə ölkəyə zəruri maliyyə və texniki, o cümlədən tibbi preparatlar və qoruyucu vasitələr yardımı edib. Biz pandemiyaya qarşı mübarizə işinə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə iki dəfə donor töhfəsi etdik. Mart ayında Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında donor sazişi imzalandı. Sazişə müvafiq olaraq biz bu bəla ilə qlobal səviyyədə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. May ayında isə Qoşulmama Hərəkatının sədri kimi Hərəkatın virusdan daha çox zərər çəkən üzvlərinə yardım göstərilməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə etdik. Müvafiq qərara əsasən, Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan bu yardımın miqyasını və təqdim ediləcəyi ölkələri birgə müəyyənləşdirəcək.



**- Elə bu vaxt neftin qiyməti təxminən sıfıra endi. Bu, respublikanın iqtisadiyyatına necə təsir etdi?**

- Birinci rübdə sosial-iqtisadi inkişafın nəticələrinin müsbət olmasına baxmayaraq, gələcəkdə bizim enmə müşahidə etməyimiz istisna deyil. Buna baxmayaraq, biz koronavirusdan daha çox zərər görən sahələrdə işləyən insanlara yardım üçün minimum 2 milyard dollar həcmində mühüm maliyyə resurslarını səfərbər etmişik. Bizdə belə vətəndaşların sayı təqribən 700 mindir. Bu gün həmin insanların işləmək imkanından məhrum olduqları nəzərə alınaraq, onların əməkhaqqının mühüm hissəsi dövlət tərəfindən ödənilir. Həmçinin dövlət sektorunun məcburi məzuniyyətə göndərilən işçiləri əməkhaqqını tam həcmdə alırlar. Bu qəbildən insanların sayı isə bizdə 900 mindən çoxdur. Aşağı gəlirli insanlar kateqoriyasına aid olan 600 min nəfərə, o cümlədən işsizlərə, qeyri-formal sahədə məşğul olanlara da dövlət tərəfindən sosial müavinət ödənilir. İşsizlərin sayının kəskin artmasına yol verməmək məqsədilə bu il haqqı ödənilən 90 min ictimai iş yeri yaradılması haqqında qərar qəbul olunub, habelə Azərbaycanda 80 mindən çox ailə ünvanlı sosial yardım alacaq. Bu, sosial-iqtisadi tədbirlərin tam paketi deyil. Biz buraya vergi güzəştlərini, vergi tətillərini, kommunal ödənişlər və bank kreditləri xidmətlərində müəyyən güzəşt şərtlərini də əlavə edə bilərik. Beləliklə, Azərbaycan dövləti məqsədyönlü, sistemli fəaliyyət göstərir. İlk növbədə, bu, insanların sağlamlığı və təhlükəsizliyidir. İkinci növbədə, bu, iqtisadi inkişaf, habelə əhalinin sosial müdafiəsidir. Həmçinin beynəlxalq əməkdaşlıqla bağlı məsələlər, hesab edirəm, Azərbaycan tərəfindən ən məsuliyyətli şəkildə başladıldı.

**- Biz Sizinlə ümumi bayramımız - Böyük Qələbənin 75 illiyi ərəfəsində söhbət edirik. O müharibədəki qəhrəmanlıqlarına görə respublikadan 400 mindən çox insan döyüş mükafatı alıb. Azərbaycanlıların milli xarakterini necə təsvir edərdiniz?**

- Azərbaycan oğulları Böyük Vətən müharibəsi meydanlarında ləyaqətlə vuruşublar. Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın müharibədə iştirak etmiş 600 mindən çox nümayəndəsinin yarısı həlak olub. Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Azərbaycan Sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Onu demək kifayətdir ki, Sovet ordusu üçün mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi və neftin 70 faizi Azərbaycan tərəfindən tədarük edilib. Həmçinin bizim müəssisələrdə gecə-gündüz Sovet ordusu üçün çox vacib silah sistemi istehsal edilirdi. Azərbaycanın sənayesi həmişə inkişafda olub. Qısa müddətdə o, hərbi texnika istehsalına tam yönəldilib.

**- Sizin atanız Heydər Əliyev müharibə veteranlarını millətin qızıl fondu adlandırıb. Bu gün Böyük Vətən Müharibəsi veteranlarına hansı kömək göstərilir?**

- Azərbaycanda bu gün həmişə geniş qeyd olunur. Hərçənd deməliyəm ki, müstəqilliyin ilk illərində bu, belə deyildi. 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramı ləğv edildi və veteranlar mənəvi terrora məruz qaldılar. Lakin Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu ədalətsizlik aradan qaldırıldı və həmin vaxtdan 9 May dövlət bayramıdır. Hər il mən həmin gün, bir qayda olaraq, veteranlarla görüşürəm, həlak olanların xatirəsini anırıq, məzarları üzərinə əklillər, güllər qoyuruq. Bu il tədbir, əlbəttə, başqa formatda olacaq. Çünki biz veteranlarımızı qorumalıyıq. Hələ ki, karantin rejimi bir yerə kütləvi toplaşmağa, kütləvi tədbirlər keçirilməsinə yol verməsə də, bundan məsələnin mahiyyəti dəyişməyəcək. Hərçənd bayramın qeydedilmə formatı başqa cür olacaq, lakin düşünürəm ki, veteranlar həm bu gündə, həm də sonra Azərbaycan dövlətinin dəstəyini hiss edəcəklər. Veteranlar qayğı ilə əhatə olunub, onların maddi durumu təmin edilir. Onların çoxu dövlət tərəfindən ayrıca yaşayış sahəsi, mənzillə təmin edilib. Biz həmin gün, bir qayda olaraq, onlara Prezident mükafatları təqdim edirik. Beləliklə, bütün bunların hamısı qorunub saxlanılacaq. Ən başlıcası isə Böyük Vətən müharibəsi haqqında həqiqət həmişə üstünlük təşkil etməli, tarixin yenidən yazılması, faşizmin və faşist cinayətkarlarının qəhrəmanlaşdırılması cəhdləri olmamalıdır. Azərbaycanın bu istiqamətdə mövqeyi birmənalıdır.

**- Rusiya ilə münasibətləri səmərəli adlandırırsınız. Sizin fikrinizcə, daha nə etmək lazımdır ki, bu münasibətlər daha yaxşı olsun?**

- Əminəm ki, münasibətlərimizin inkişafı üçün ən əlverişli perspektivlər var, çünki Rusiya-Azərbaycan münasibətlərinin çox möhkəm təməli qoyulub. Bu münasibətləri hər iki tərəf strateji tərəfdaşlıq kimi xarakterizə edir. Bu həqiqətən belədir. Çünki münasibətlərimizin yalnız geniş gündəliyinə nəzər salsaq, biz həyat fəaliyyətinin, demək olar, bütün sahələrini görərik. Bizim qarşılıqlı siyasi əlaqələrimiz çox fəaldır, dövlət başçıları səviyyəsində çoxlu görüşlər olur, görüşlər müntəzəm keçirilir. Son illərdə biz iqtisadi planda əmtəə dövriyyəsinin artımını görürük ki, bu da iqtisadi əməkdaşlığın fəallaşdığına dəlalət edir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sektorlarında Rusiya kapitalı ilə yüzlərlə şirkət çalışır. Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Biz mühüm Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsini birgə reallaşdırırıq. Həm Rusiya, həm də Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün infrastruktur layihələri praktiki olaraq həyata keçirilib.

*(Ardı 9-cu səh.)*

(Əvvəli 8-ci səh.)

Hazırda biz nəqliyyat-logistika istiqamətləri ilə bağlı məsələlər üzərində işləyirik. Məqsəd yük daşımalarını artırmaq və bununla da qonşu ölkələrimizə daha əlverişli şərait yaratmaq, tranzit potensialını möhkəmlətməkdir. Energetika sahəsində kifayət qədər çox layihələr var və Rusiya ilə Azərbaycanın enerji sistemlərinin birləşdirilməsini qeyd etməliyəm. Ya Azərbaycanda, ya da Rusiyada qəza olanda biz dərhal bir-birimizə kömək edir və həmrəylik nümayiş etdiririk. Ona görə də perspektivlər haqqında danışarkən düşünürəm ki, biz əldə edilmiş nəticəyə istiqamətlənəcək, qeyd etdiyim həmin istiqamətlər üzrə də gələcəkdə yeni istiqamətlər üzrə də işləyəcəyik. Bu gün biz 7 yol xəritəsinin reallaşdırılması üzrə ikitərəfli formatda işləyirik. Bunlar həyat fəaliyyətinin bütün vacib sahələrini əhatə edən konkret layihələrdir. Hər bir istiqamət üzrə dəqiq plan, zaman müddəti, yol xəritələrinin reallaşdırılması üçün prezidentlərin tapşırıqları var. Bütün bunlar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, əməkdaşlıq səviyyəsini, əmtəə dövriyyəsinin və qarşılıqlı investisiyaların artımını möhkəmləndirəcək. Əlbəttə ki, bütün bunlar xalqlarımızın rifahının daha da yaxşılaşmasına gətirib çıxaracaq.

**- Siz rus dilini çox əla bilirsiniz. Bu gün Azərbaycan mədəniyyətində rus dilinin rolunu necə qiymətləndirirsiniz?**

- Bizim münasibətlər ən yüksək qiymətə layiqdir. Azərbaycanda rus dilində təhsilin səviyyəsi genişlənir. Artıq Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları mövcuddur. Tədrisin rus dilində aparıldığı məktəblərə gəldikdə isə, onların sayı artıq 340-a çatır. Bütün bunlar artıq qazanılmış potensialdır. Əlbəttə, bu il turizm sahəsində böyük tənəzzül olacağı təəssüf doğurur. Çünki ənənəvi olaraq Azərbaycan vətəndaşları Rusiyaya, Rusiya vətəndaşları Azərbaycana səfər ediblər, turist axınının artımı daim yaxşı rəqəmlərdə əksini tapıb. Lakin pandemiya nəzərə alınaraq qarşılıqlı razılıq əsasında ölkələrimiz arasında sərhədlər bağlanıb. Buna görə də yəqin ki, turist axını və turizm sahəsi karantin rejimi prosesindən ən axırda çıxan sahələr olacaq.

**- Bu il bizim Teleradio şirkətinin 27 yaşı tamam olub. Bizim tamaşaçılara Qələbə günü münasibətilə nə arzulamaq istərdiniz?**

- Fürsətdən istifadə edərək, bütün veteranlara bu mürəkkəb dövrdə cansağlığı arzulamaq istərdim. Bu gün pandemiya şəraitində hər birimiz yaxınlarımızı, cavabdeh olduğumuz insanları qorumalıyıq. Azərbaycanda pandemiya şəraitində belə şüarlar yaranıb: "Biz birlikdə daha güclüyük", "Biz birlikdə güclüyük". Elə bu şüarlarla da müsahibəni bitirmək istərdim. Sağ olun.

- Cənab Prezident, bu müsahibəyə görə sizə minnətdaram. Bayramınız mübarək.

# Paşinyandan yeni pozuculuq - Qarabağ məsələsində onun hələ "2018-ci ildəyəm" iddiasına vasitəçilər niyə susdu...

**Ermənistanın Baş naziri Nikol Paşinyan çərşənbə günü parlamentdə çıxışı zamanı deyib ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi 2018-ci ildən bəri zərrə qədər də dəyişməyib: "Ermənistanın heç bir rəhbəri mənim kimi Qarabağ münaqişəsi ilə bağlı öz yanaşmasını açıq göstərməyib.**




Əgər danışıqlarda bizim prinsiplərimizə uyğun təklif olarsa, parlamentin qapalı iclasını keçirib müzakirə aparacağıq".

Azərbaycan Xarici İşlər Nazirliyi Paşinyanın parlamentdə çıxışı zamanı münaqişənin həlli ilə bağlı mövqeyinin 2018-ci ildən bəri zərrə qədər də dəyişmədiyi barədə bəyanatını şərh edib.

Bununla bağlı XİN-in açıqlamasında qeyd olunur ki, bu bəyanatı ilə Ermənistan Baş naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə və beləliklə də bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına məhz Ermənistanın əngəl törətdiyini etiraf etmiş olur.

Bütün bu deyilənlərin fonunda, vəziyyət doğrudan da Paşinyanın dediyi kimidirsə, o zaman bunun məsuliyyətini kim daşıyır? Həmsədrlər, beynəlxalq qurumlar hansı addımları atmalıdırlar?

## *Ramil Hüseynov: "...bunun məsuliyyətini Ermənistan və həmsədrlər daşıyırlar"*

Məsələyə münasibət bildirən siyasi şərhçi Ramil Hüseynovun sözlərinə görə, Paşinyanın son açıqlaması bir daha danışıqların pozulmasına yönəlik növbəti təxribatdır: "Zatən, bundan əvvəl dəfələrlə Paşinyan belə avantürist açıqlamalarla çıxış edib. O baxımdan, onun son açıqlaması müəyyən mənada təəccüblü görünmür. Məsələ ondadır ki, Paşinyan Baş nazir olandan dəfələrlə separatçı qurumun danışıqlarda tərəf olmasına cəhd edib. Ancaq başda Azərbaycan olmaqla, ATƏT-in Minsk Qrupunun həmsədrləri onun bu təşəbbüsünü rədd ediblər. Bütün bunlara baxmayaraq, Paşinyan bu istəyindən əl çəkmir. Hər vasitə ilə separatçı qurumun danışıqlarda tərəf olmasına çalışır. Onu da qeyd edim ki, Paşinyan ictimai rəyi sakitləşdirmək üçün Qarabağ danışıqları ətrafında spekulyasiya aparır. Çünki əvvəlki "Qarabağ klanı" ona qarşı kəskin müxalif mövqedən çıxış edir. O baxımdan, bəzi məqamlarla bağlı Paşinyanın yalan danışması versiyası da istisna deyil. Məsələnin bu tərəfi də var. Yox, əgər Qarabağ danışıqlarında vəziyyət doğrudan da Paşinyanın dediyi kimidirsə, o zaman bunun məsuliyyətini Ermənistan və həmsədrlər daşıyırlar. Çünki separatçı qurumun danışıqlarda tərəf olması qəbul olunmayıb. Paşinyanın açıqlamasından belə məlum olur ki, onlar əvvəlki mövqedən geri çəkilmək istəmirlər. Bu isə danışıqların bəri başdan pozulması və nəticəsiz olaraq davam etdirilməsi deməkdir. Hesab edirəm ki, bu, belədirsə, o zaman həmsədrlərin bunu susqunluqla seyr etmələri təəssüf doğuran məqamdır. Onlar bununla bağlı konkret mövqe ortaya qoymalıdırlar.

*"Həmsədrlər bununla bağlı konkret mövqe ortaya qoymalıdırlar"*

Məsələnin bir başqa tərəfi də var. O da ondan ibarətdir ki, Ermənistan uğrunda ABŞ-la Rusiya arasında müəyyən geosiyasi mübarizə gedir. Ola bilsin ki, bu səbəbdən sözügedən ölkələr Qarabağ məsələsində Ermənistana ciddi təzyiq göstərə bilmirlər. Çünki tərəflərdən hər hansı birinin Ermənistana güclü təzyiqi bu ölkənin digər dövlətin yanında yer almasına gətirib çıxara bilər".

***Vidadi ORDAHALLI***

# "Freedom House"dakı erməni idarəçilər Ermənistanı yenə Azərbaycandan qabağa keçirdi, halbuki...

**"Freedom House" təşkilatı dünyada insan hüquqlarının vəziyyəti barədə illik hesabatı dərc edib. "Demokratiya və azadlığın genişləndirilməsi: Keçid dövrünün dövlətləri" adlı araşdırma 29 ölkəni əhatə edir. Bunlardan 10-u demokratik, 10-u hibrid, 9-u avtoritar ölkəyə aid edilib.**




Azərbaycan 1,4 balla sonuncu kateqoriyaya daxil edilib. Ancaq qəribədir ki, Ermənistan 3 balla hibrid rejimi olan ölkələr sırasına düşüb. Yəni Azərbaycanla müqayisədə yaxşı siyahıya salınıb.

İllik hesabatda "Freedom House" iddia edir ki, guya Azərbaycan, Tacikistan və Türkmənistan dövlət başçıları öz qohumlarını məsul postlara təyin edərək hakimiyyətin sülalə şəklində ötürülməsi üçün zəmin yaradır. Bu da müəyyən risq yaradır. O da qeyd olunub ki, oturuşmuş diktaturası olan regionda fundamental azadlıqlar çox zəif qorunub.

Hesabatda Ermənistan və Gürcüstan 3 və 3,25 balla hibrid rejimi olan ölkələr sırasına düşüb. Görünən odur ki, yenə də bu təşkilat qərəzli mövqedən çıxış edərək Ermənistanda insan hüquqları sahəsində yaşanan problemləri görməzdən gəlir. Hansı ki, demokratiya adı altında hakimiyyətə gələn Paşinyan dayaqlarını möhkəmləndirəndən sonra müstəqil fəaliyyət göstərən bütün təsisatları sıradan çıxarır. Təkcə Konstitusiya Məhkəməsi ətrafında yaranan biabırçılıq buna əyani sübutdur. Ancaq hər zaman ermənipərəst mövqedən çıxış edən "Freedom House" təşkilatı yenə "ənənəsinə" sadiq qalaraq, Ermənistanı Azərbaycandan qabağa keçirir.

## *Elçin Mirzəbəyli: "Ermənistanın hesabatda daha yaxşı kateqoriyaya daxil edilməsi ikrah doğurur"*

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, sözügedən təşkilat zaman-zaman Azərbaycana yönəlik qərəzli yanaşma sergiləyib: "Freedom House" təşkilatı, əslində, geosiyasi təzyiq aləti kimi yaradılıb və öz funksiyasını yerinə yetirir. Yəni bu təşkilatı formalaşdıran güc mərkəzləri ondan ayrı-ayrı ölkələrə qarşı məqsədyönlü şəkildə təzyiq vasitəsi kimi istifadə edirlər. Öncə bu və ya digər ölkələrdəki nüfuz vəkilləri vasitəsilə sosial şəbəkələrdə şoular yaradırlar. Daha sonra bu şoular əsasında "Freedom House" kimi təşkilatlar "hesabatlar" hazırlayırlar. Ondan sonra isə müəyyən dairələr bundan istifadə edərək ölkələrə təzyiq göstərirlər. Adətən, belə yanaşma müstəqil siyasət yürüdən ölkələrə qarşı sərgilənir. Bu mexanizm uzun illərdir tətbiq olunur. Düşünürəm ki, "Freedom House"dan və onun kimi digər təşkilatlardan hər hansı ədalətli münasibət gözləməyə lüzum yoxdur. Azərbaycanda vətəndaşların söz və fikir azadlığı ilə bağlı heç bir problem yoxdur.

*"...hesabat tamamilə birtərəfli və qərəzli meyarlara əsaslanır"*

Digər tərəfdən, Azərbaycan dövləti sosial yanaşma indeksinə görə həmin o hesabatda yer alan dövlətlərin əksəriyyətindən üstündür. O cümlədən də Ermənistandan. Azərbaycanda fundamental azadlıqlar qorunur və demokratiya sahəsində inkişaf davam edir. Bu aspektdən biz ölkəmizin hansı mövqedə dayandığını kifayət qədər yaxşı bilirik. Ermənistanın hesabatda daha yaxşı kateqoriyaya daxil edilməsi ikrah doğurur. Ona görə ki, Paşinyan rejiminin bu sahədə necə kobud pozuntulara yol verməsi hamıya yaxşı məlumdur. Bu baxımdan bu hesabat tamamilə birtərəfli və qərəzli meyarlara əsaslanır".

***Vidadi ORDAHALLI***

# Azərbaycan Prezidentinin yeni infrastruktur layihəsi - "modul xəstəxana" nədir...

**Adil Qeybulla:** *"Modul tipli xəstəxanalar gözlənilməz hallara qarşı nəzərdə tutulub"*

**Dünyada koronavirus adlı bir kabus dolaşır. Bu xəstəlik vahiməli olduğu qədər də sirlidir. Hazırda onun vahid müalicə forması yoxdur. İndiki halda, bir neçə müalicə üsulundan istifadə olunur ki, o da bir xəstəyə müsbət təsir göstərdiyi halda, digərinə kömək etmir. Bir sözlə, bütün dünyada həkimlər bu xəstəliyin qarşısını almağa çalışsalar da, istəklərinə tam nail ola bilmirlər.**

Hazırda koronavirusun müalicəsi üçün dərman və ya peyvəndin hazırlanması ilə məşğul olan alimlərin rəyinə görə, onlara ən azı bir-iki il vaxt gərəkdir. Çünki indiyədək heç yerdə belə bir virus müşahidə edilməyib. Xəstəliyin başlanğıcının bəzən gizli keçməsi, ətrafdakıların tez yoluxması, hər xəstə üçün bir cür müalicə üsulundan istifadə edilməsi işləri daha da çətinləşdirir.

Dünyanı bürüyən koronavirus təəssüf ki, ölkəmizə də gəlib çatdı.

Koronavirusun yarada biləcəyi fəsadların qarşısını almaq üçün Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb və fəaliyyət göstərir. Qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə bu sahə üzrə ekspertlərdən ibarət qrup formalaşdırıldı. Prezident İlham Əliyevin göstərişi ilə ölkənin bütün maddi resursları əhalinin sağlamlığının qorunmasına səfərbər edilib. Buraya 575 çarpayılıq "Yeni klinika"nın vaxtından əvvəl istifadəyə verilməsi, xaricdən müasir laboratoriyaların alınıb gətirilməsi, mövcud xəstəxanaların lazımi tibbi avadanlıqlarla təchizi də daxildir. Eyni zamanda, infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili üçün modul tipli xəstəxanaların quraşdırılması məqsədilə dövlət tərəfindən böyük vəsait ayrılıb. Məlum olduğu kimi, Azərbaycanda koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi məqsədilə modul tipli xəstəxanaların tikintisinə başlanıb. Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə göstərilmiş məbləğin 14,8 milyon manatı ayrılıb.

Qeyd edək ki, ilk modul tipli xəstəxananın tikintisi başa çatmaq üzrədir. Bir neçə gündən sonra paytaxtda yerləşən yeni xəstəxana TƏBİB-ə təhvil veriləcək. Bu xəstəxana 200 koronavirus diaqnozlu pasienti qəbul edə biləcək.

Onu da bildirək ki, yaxın günlərdə təhvil veriləcək modul tipli xəstəxanada fəaliyyət göstərəcək tibbi personal da təlimlərini yekunlaşdırıb. Bu xəstəxanaların əsas missiyası koronavirus pandemiyası zamanı tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanmasından ibarətdir.

Məlumat üçün vurğulayaq ki, tikiləcək modul tipli xəstəxanalar Abşeron, Sumqayıt və Bakıda inşa edilir. Artıq Gəncədə də modul tipli xəstəxananın inşasına start verilib. 45 günə istifadəyə verilməsi nəzərdə tutulan xəstəxana 100 palatadan ibarət olacaq.

Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev bildirib ki, hazırda Azərbaycanda hökumət tərəfindən dövlət büdcəsindən ayrılan vəsaitlə 6, özəl şirkətlər tərəfindən isə 4 modul tipli xəstəxana tikilir: "Hər bir xəstəxana 200 çarpayıdan ibarət olacaq, bu isə əlavə 2000 çarpayı imkanı yaradacaq. Əgər yoluxma sayı daha çox olsa, biz bu xəstəxanalardan da istifadə edə biləcəyik. Yaxın zamanlarda, hətta 1-2 gün ərzində ilk modul tipli xəstəxananın açılışı gözlənir. İyun ayının ortalarına qədər digər xəstəxanaların da açılması nəzərdə tutulur. Bu həm Bakıda, həm də regionlarda olacaq. Həmin xəstəxanalara COVID-19 xəstələrini rahat yerləşdirə biləcəyik".

Qeyd edək ki, modul tipli xəstəxanaların əsas üstünlükləri azməsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılmasıdır. Məqsəd koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkilidir.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı media nümayəndələrinə açıqlamasında bildirib ki, bu xəstəxanalar gözlənilməz hallara qarşı nəzərdə tutulub.

Mütəxəssislər qeyd edirlər ki, modul xəstəxanalar digər tibb müəssisələrinin başqa xəstəliklərdən əziyyət çəkən insanlara xidmət göstərməkdə davam etməsinə imkan verəcək.

Onu da bildirək ki, modul tipli xəstəxanalar pandemiya zamanı xəstəxanalara artan ehtiyacı ən qısa zamanda qarşılamaq üçün istifadə olunan çevik tibb infrastrukturudur. Tez quraşdırılan bu xəstəxanaları qısa bir zamanda da ləğv etmək mümkündür. Koronavirusun geniş yayıldığı Çində yoluxmanın sürətlə artmağa başladığı ilk dövrlərdə, fevralın əvvəlində ümumi sahəsi 25 min kvadratmetrdən çox olan bir neçə mobil xəstəxana qurulub. Martın 10-da isə artıq həmin xəstəxanalara ehtiyac qalmadığından bağlanıb. Qonşu Türkiyədə isə İstanbulda 2 belə xəstəxananın quraşdırılmasına başlanıb.



*"Modul tipli xəstəxanaların əsas üstünlükləri azməsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılmasıdır"*

Modul tipli xəstəxanaların üstünlükləri barədə danışan tibb elmləri doktoru, həkim-ekspert Adil Qeybulla bildirdi ki, Azərbaycanda hazırda koronavirusa qarşı müalicəni təşkil etmək üçün xəstəxanalar var: "Bakıda 4 xəstəxana ayrılıb. Həmçinin, regionlarda da xəstəxanalar ayrılıb. Modul xəstəxanaların qurulması ehtiyacı xəstələrin sayının artmasından doğur. Amma sərt tədbirlər görə bilsək, yəqin ki, qısa müddət ərzində infeksiyanın enmə tempini görə bilərik. Tədbirlər pozulsa, bu temp arta da bilər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, modul tipli xəstəxanalar Bakı ilə yanaşı, bölgələrdə də qurulur: "Bakıda əhalinin sayının çox olduğu nəzərə alınıb, regionlarda da bu tip xəstəxanalar inşa edilir. Modul tipli xəstəxanaların bir çox üstünlüyü var. Onlardan biri qısa müddət ərzində inşa edilməsidir. Həmçinin, bu xəstəxanalar gözlənilməz hallara qarşı nəzərdə tutulub".**

***Günel CƏLİLOVA***

# Ermənistan bu dəfə Çinin qəzəbinə tuş gəldi - ABŞ biolaboratoriyaları İrəvana ciddi baş ağrıları vəd edir

**ABŞ-la Çin arasında koronavirus pandemiyası ilə bağlı mübahisələrin dərinləşdiyi bir vaxtda Pekində diqqət kifayət qədər maraqlı bir məsələyə yönəldilir. Söhbət bəzi postsovet ölkələrində, xüsusən də Ermənistanda olan biolaboratoriyalardan gedir.**

Çinin rəsmi dövlət qəzeti olan "Jenmin Jibao" bu xüsusda qeyd edir:"ABŞ-dan kənardakı bioloji laboratoriyalarda hansı tədqiqatlar aparılması barədə Vaşinqton hələ də susur. Bu yaxınlarda Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitə sədrinin müavini Natalya Poklonskaya bütün dünyada Amerika bioloji laboratoriyalarının qanuniliyini yoxlamağı təklif edib. Eləcə də Rusiya Xarici İşlər Nazirliyi keçmiş Sovet İttifaqı ölkələrində bioloji laboratoriyaların yaradılmasından narahatlığını bildirib. Xarici siyasət və milli müdafiə üzrə rusiyalı mütəxəssis Qriqori Trofimçuk bu bioloji laboratoriyaların işinin heç vaxt dünyaya açıqlanmadığını, eyni zamanda, laboratoriya ərazilərində qızılca kimi təhlükəli yoluxucu xəstəliklərin də baş verdiyini söyləyib. Bu laboratoriyalarda hansı tədqiqatlar aparılır? Niyə ABŞ bu bioloji laboratoriyaların funksiyaları, istifadəsi və təhlükəsizliyi barədə susur?". Bu fonda indi daha çox Ermənistanda olan biolaboratoriyalar gündəmə gəlir. Rusiyalı politoloq Aleksandr Karavayev bunu təsadüfi saymır. O vurğulayır ki, Ermənistandakı biolaboratoriyalar ABŞ-la Çin arasında yeni böhranın amilinə çevrilir. Politoloq bildirib ki, Pekin diqqəti Ermənistanda bu biolaboratoriyaların mövcudluğu faktına yönəldib:"Ermənistandakı biolaboratoriyalarla əlaqədar elə kontekst formalaşır ki, bundan sonra Moskvadan daha çox Pekin oraya giriş hüququnda təkid edəcək. Həm ABŞ, həm də Çin bir-birini bioloji və toksik silahların qadağan olunması barədə Konvensiyanı pozmaqda ittiham edəcək. Vaşinqton iddia edəcək ki, Konvensiya Uhanda laboratoriyada sızma faktı baxımından pozulub. Pekin də, təbii olaraq, onu vurğulayacaq ki, amerikalılar öz ərazilərində fəaliyyət göstərən laboratoriyalara giriş hüququ barədə protokolu imzalamayıb və Ermənistanda yenilərini yaradır. Bu məsələdə Moskvanın mövqeyi çox vacibdir. Maraqlıdır ki, 2014-cü ildən Moskva, bioloji silah tətbiq olunacağı təqdirdə, yardım göstərilməsi üçün səyyar tibbi-bioloji çevik reaksiya dəstələri yaratmağı dəfələrlə təklif edib. Amma bu təkliflər havada qalıb".

Hazırda İrəvanın rusiyalı mütəxəssislərin Moskva ilə həmrəylik nümayiş etdirir. Bu günlərdə isə Ermənistan rusiyalı mütəxəssisləri ABŞ-ın maliyyəsi ilə yaradılan bioloji laboratoriyalara buraxmaqdan yenidən imtina edib. Halbuki, daha öncə Rusiya mütəxəssislərinin, o cümlədən hərbçilərin həmin bioloji laboratoriyalara girməsinə zəmanət veriləcəyi bildirilmişdi. Qeyd olunurdu ki, bu, Rusiya ilə Ermənistan arasında "Bioloji Təhlükəsizlik Məsələləri haqqında" Anlaşma Memorandumundan biolaboratoriyalara girişinə imkan verməməsi fonunda Pekin Ermənistanda fəaliyyət göstərən Amerika bioloji laboratoriyalarının bütün region üçün təhdid törətdiyi məsələsində irəli gəlir. Amma İrəvan sonradan fikrini dəyişdi. Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Anna Nağdalyan bu xüsusda bildirdi:"İlk öncə qeyd etmək istəyirəm ki, ölkədə fəaliyyət göstərən biolaboratoriyalar Ermənistana aiddir və ölkənin dövlət orqanları tərəfindən tam nəzarətdədir. Erməni tərəfi dəfələrlə bildirib ki, laboratoriya heyəti yalnız Ermənistan vətəndaşlarından ibarətdir, laboratoriyalarda xarici mütəxəssislərin olması istisna olunur. Barəsində söhbət gedən "Bioloji Təhlükəsizlik Məsələləri haqqında" Anlaşma Memorandumunun Ermənistanda fəaliyyət göstərən biolaboratoriyalarla, üstəlik, rus mütəxəssislərinin onlara baş çəkmək hüququ ilə heç bir əlaqəsi yoxdur. Dəfələrlə qeyd etmişik ki, tərəflərin bioloji təhlükəsizliyinin təminatı üzrə məsələlərin geniş spektri mövcuddur. Həmin memorandum layihəsinə görə, hər hansı bir tərəfin işləyən laboratoriyaların ərazisinə daxil olması və ya birtərəfli başqa nəzarəti həyata keçirmək hüququna zəmanət verilməsi nəzərdə tutulmur". Digər tərəfdən, Ermənistan "Bioloji Təhlükəsizlik Məsələləri haqqında" Anlaşma Memorandumunun imzalanmasını da gecikdirir. Anna Nağdalyan gecikməni koronavirus pandemiyası səbəbindən tətbiq olunan məhdudiyyətlərlə əlaqələndirir. Lakin Rusiyanın RBK portalının məlumatına görə, memorandumun imzalanması koronavirusdan hələ heç bir xəbər olmadığı vaxtdan, yəni keçən ilin noyabr ayından etibarən təxirə salınıb. İmzalanmanın



təxirə salınması isə Ermənistan tərəfindən sənədin hələ hazır olmadığı səbəbi ilə baş verib. RBK, eyni zamanda, bu laboratoriyalarda müxtəlif virusların və ştamların araşdırıldığını və maliyyə ayırmalarının Pentaqon tərəfindən edildiyini bildirir.

Rus mənbələrinə görə, Ermənistandakı bu laboratoriyalara ABŞ səfirliyinin hərbi attaşesi, mayor Erik Larsen nəzarət edir və podratçı Ermənistanda bu işi yerinə yetirmək üçün 50 milyon dollar alan "CH2M Hill" şirkəti olub. Bu şirkət "BlackVeatch" vasitəsilə uzun müddətdir bioloji silahların hazırlanmasında iştirak edən digər iki təşkilata qoşulub. Rusiya Dövlət Dumasının Elm və Təhsil Komitəsinin rəhbəri, ölkənin keçmiş baş sanitar həkimi Qennadi Onişşenko hesab edir ki, bu biolaboratoriyalar başqa bir dövlətin hərbi bazalarıdır. Onun sözlərinə görə, bunlar son dərəcə təhlükəli virusların olduğu xüsusi rejimdə fəaliyyət göstərən obyektlərdir. Məhz bu durumda, Rusiya ilə yanaşı, artıq Çin də diqqəti Ermənistanda olan bu obyektlərə yönəldir. Hesab edilir ki, artıq Çin də bu xüsusda əsl həqiqətlərin üzə çıxması üçün Ermənistana təzyiqləri artıracaq.

***Nahid SALAYEV***

# Bakıda virusa yoluxmanın episentrləri - Yasamal və Sabunçu... Nədən...

**Azərbaycanda koronavirus xəstələrinin bölgələr üzrə dəqiq təsnifatı açıqlanıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Yasamalda bir neçə ocaq müəyyənləşmişdi:**




"Bir nəfər çoxlu sayda insanı yoluxdurmuşdu. Ümumilikdə, Yasamalda 22,7 %, Sabunçuda 14%, Binəqədidə 13,5%, Nəsimidə 12,6%, Xətaidə 7,7%, Nərimanovda 6,8%, Nizamidə 5,8%, Suraxanıda 5,3%, Xəzər rayonunda 4,5%, Qaradağda 3,5%, Səbaildə 2,8%, Pirallahıda isə 0,8 faiz yoluxma qeydə alınıb".

Qeyd edildiyi kimi, koronavirusa ən çox yoluxma Yasamal və Sabunçu rayonlarında qeydə alınıb. Bu ərazilərdə qeyd olunan virusa yoluxma nə səbəbdən çoxdur? Məsələ ilə bağlı həkim-ekspert Rasif Bağırova müraciət etdik.

***Rasif Bağırov:** "...epidemiyaya cəld reaksiya verilməsi virusla mübarizədə öz effektini göstərib"*

O bizimlə söhbətində qeyd etdi ki, koronavirus bu günədək 5 qitədə yayılaraq 250 mindən çox insanın həyatına son qoyub. Azərbaycanda epidemiyanın qarşısının alınması aidiyyəti orqanların gördüyü tədbirlərin çəldliyi və effektivliyi nəticəsində mümkün olub: "Məlumdur ki, Amerika Birləşmiş Ştatları və Avropa virusun ən çox yayıldığı ərazilərdir ki, buna da səbəb bu dövlətlərin virusdan gec xəbər tutmaları və onun təhlükəsini gec anlamalarıdır. Azərbaycanda isə bunun əksinə olaraq, virus tapılandan üç gün ərzində müvafiq tədbirlər görülməyə başlanıb.

*"...həmin ərazilərdə yaşayan insanların karantin rejiminə əməl etməməsidir"*

Sərhədlər, habelə İranla sərhəd bağlanıb, insanların ictimai yerlərdə toplanması qadağan edilib, məktəblər bağlanıb, virus daşıyıcısı olmaqda şübhəli bilinən insanlar karantinə götürülüb. Beləliklə, Azərbaycanda epidemiyaya cəld reaksiya verilməsi virusla mübarizədə öz effektini göstərib".

Həmsöhbətimiz vurğuladı ki, koronavirusun sürətli yayılmasının qarşısının alınması istiqamətində görülən işlərə rəğmən, virusa yoluxma hələ də qeydə alınır: "Açıqlanan məlumatlara görə, Bakıda virusa ən çox yoluxma Yasamal və Sabunçu ərazisində aşkar olunub. Bunun da səbəbi həmin ərazilərdə yaşayan insanların karantin rejiminə əməl etməməsidir".

***Günel CƏLİLOVA***

# Gəncə-Qazax və Lənkəran bölgələri pandemiyanın ikinci dalğasına daha yaxındır...

**Bu gün koronavirus pandemiyasının ölkəmizdə ikinci dalğasının yaşana biləcəyi ilə bağlı müəyyən ehtimallar və fikirlər mövcuddur. Pandemiyaya qarşı dövlət tərəfindən genişmiqyaslı tədbirlərin görülməsinə baxmayaraq, vətəndaş məsuliyyətsizliyi nəticəsində bu acı prosesin yenidən təkrarlanması təhlükəsinin elementləri görsənməkdədir.**

*"Gəncədə mövcud karantin rejiminə ciddi əməl edilməməsi səbəbindən də orada yoluxmalar çoxaldı"*

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxışı zamanı deyib ki, Azərbaycanda yoluxma halları arasında faiz göstəriciləri Bakı üzrə 45.3, Gəncə-Qazax üzrə 14.1, Lənkəran üzrə 10 faiz təşkil edir.

Qeyd edək ki, Gəncə-Qazax bölgəsi ölkədə koronavirusa yoluxmanın sayına görə paytaxtdan sonra ikinci yerdə gəlir. Zaur Əliyev Operativ Qərargahda qeyd edib ki, ilk yoluxma şəhərə kənardan gələn şəxsdə qeydə alınıb, sonra isə daxildə yayılmağa başlayıb. Onun sözlərinə görə, Gəncədə virusun yayılmasının səbəblərindən biri də ölkənin ikinci böyük şəhərinə giriş-çıxışın çox olmasıdır.

Agentlik sədri vurğulayıb ki, son zamanlar koronavirusa yoluxanların sayının artması siqnallar verir ki, vətəndaşlar tövsiyələrə daha ciddi riayət etməlidirlər

O, həmçinin, deyib ki, ölkədə aprelin ortalarında koronavirusa yoluxma dalğası daha yüksəyə qalxmışdı, sonra isə aşağı düşməyə başlamışdı. Yoluxma sayı 27 apreldən 3 mayadək yenidən artıb. Hazırda dünyada koronavirusla mübarizədə tətbiq edilən bütün dərman və tibbi vasitələr Azərbaycanda da istifadə edilir. Müalicə işinin təşkili üçün bütün yeniliklərdən istifadə edilir.

Qeyd edək ki, şimal bölgəsində də sözügedən virusun yayıldığı qeyd edilib. Belə ki, Rusiyadan keçən bir neçə nəfərdə testlərin nəticəsi pozitiv aşkarlanıb. Eyni zamanda, cənub bölgəsində də İranla gediş-gəliş olduğu üçün orada yoluxma halları çox olub

***Nəsib Quliyev:** "Cənub bölgəsi İranla həmsərhəddir və o ölkə ilə gediş-gəliş çox olduğuna görə burada yoluxma faizi artıqdır"*



K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Nəsib Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, bunun səbəbinə aidiyyəti qurumlar aydınlıq gətiriblər. O vurğuladı ki, əvvəllər orada virusa yoluxmuş şəxs olub və bunun nəticəsində də alovlanma ocağı əmələ gəlib, o şəxs ətrafdakıları da yoluxdurub: "Bilirsiniz ki, cənub bölgəsi İranla həmsərhəddir və o ölkə ilə gediş-gəliş çox olduğuna görə burada yoluxma faizi artıqdır. Yoluxan adamlar da ətrafındakıları yoluxdurub. Cənub bölgəsində də infeksiya ilə bağlı bir alovlanma olmuşdu və insanlar qrup şəklində yoluxmuşdular. Ona görə də cənub bölgəsində yoluxanların sayı çoxdur. Azərbaycanda ilk yoluxma halı İranla sərhəd olan cənub bölgəsindən, Lənkərandan başlamışdı. Bunları təyin etmək çox çətindir. Məsələn, ölkədən kənarda kimsə yoluxub gəlib və onun xəstəliyinin ilk əlamətləri olmur, xəstəxanada yatmaq həddinə qədər onda xəstəlik əlaməti diqqət çəkməyib. Onlara bəzən "sağlam virus gəzdirənlər" də deyirlər. Onlar xəstəliyi o qədər yüngül keçirirlər ki, o adamlarda virus olduğunu heç kim hiss etmir, özü də bilmədən ətrafındakı olanları yoluxdurmağa başlayır".

Gəncə-Qazax bölgəsinə gəlincə, N.Quliyev qeyd etdi ki, Gəncə bölgədə böyük şəhərdir və bu səbəbdən də orada yoluxma faizi yüksəkdir: "Bilirsiniz ki, böyük şəhərlərdə sıxlıq olur və sıxlıq olan yerlərdə də təmas say etibarilə daha da çoxalır, nəticədə də yoluxma ehtimalı yaranır. O biri tərəfdən də Gəncədə mövcud karantin rejiminə ciddi əməl edilməməsi səbəbindən də orada yoluxmalar çoxaldı".

***İradə SARIYEVA***

# Azərbaycan koronavirusla mübarizədə regional liderdir

**Məlum olduğu kimi, koronavirus pandemiyası Cənubi Qafqaz regionundan da yan keçməyib. Gürcüstan, Azərbaycan və Ermənistanda minlərə insan COVİD-19-dan müalicə alır. Bu ölkələrin koronavirusla mübarizədə əldə etdiyi nəticələr müxtəlifdir.**



## *Seyid Camal Əzimbəyli: "Koronavirusla mübarizə məsələsində ölkədə bütün qabaqlayıcı tədbirlər kompleks şəkildə həyata keçirildi"*

İstər ərazi (29,8 min kv. km), istərsə də əhali sayı baxımından (2,9 milyon) Cənubi Qafqazın ən kiçik ölkəsi Ermənistan pandemiyanın mənfi göstəricilərinə görə regional liderdir. Təkcə son sutkada ölkədə 163 nəfər virusa yoluxub. Bu günə qədər Ermənistanda 2782 nəfər koronavirusa yoluxub. Onlardan 1135 nəfər sağalaraq evə buraxılıb. Ötən müddətdə 40 nəfər virusun qurbanı olub. Hazırda Ermənistanda 1600 aktiv COVİD-19 xəstəsi var. Qafqaz ölkələri arasında ən az koronavirus testi də Ermənistanda (26 929) keçirilib.

69,7 min kvadrat kilometr sahəsi və 3,7 milyon sakini olan Gürcüstanda koronavirusla bağlı mayın 22-nə qədər fövqəladə vəziyyət mövcud olacaq. Ölkədə bu gün koronavirusa yoluxanların sayı 610 nəfərə çatıb. Onlardan 269 nəfər sağalsa da, 9 pasient dünyasını dəyişib. Hazırda 332 COVİD-19 xəstəsi müalicəsini davam etdirir. Gürcüstanda 20 579 koronavirus testi keçirilib.

Ərazisinin böyüklüyünə (86,6 min kvadrat kilomter) və əhalisinin çoxluğuna görə (10 milyon) Cənubi Qafqazın lider ölkəsi Azərbaycan virusla mübarizədə də ön pillədədir. Belə ki, istər koronavirusdan sağalanların çoxluğuna, istərsə də ölü sayının azlığına görə Azərbaycan Ermənistan və Gürcüstanı geridə qoyur. Ümumilikdə, Azərbaycanda 2127 nəfər koronavirusa yoluxub. Onlardan 1536 nəfər sağalıb, 28 nəfər vəfat edib. Hazırda 563 aktiv koronavirus xəstəsi müalicəsini davam etdirir. Ölkəmizdə koronavirusdan ölüm faizi dünya üzrə orta göstəricidən 5,5 dəfə azdır.

Maraqlıdır, Azərbaycanın koronavirusla mübarizədə regional lider olmasının kökündə nə dayanır?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Azərbaycanın bu sahədə ciddi nəticələr əldə etməsinin kökündə bir sıra faktorlar dayanır: "Ölkəmizdə pandemiya ilə bağlı vəziyyətin nəzarət altına alınmasını şərtləndirən əsas həlledici amil dövlətin vaxtında gördüyü qabaqlayıcı tədbirlərlə bağlıdır. Məsələ ondadır ki, koronavirusla mübarizə məsələsində ölkədə bütün qabaqlayıcı tədbirlər kompleks şəkildə həyata keçirildi. Yoluxucu xəstəliyin yayılmasının qarşısının alınması məqsədilə hökumət tərəfindən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan fevralın 29-dan etibarən İranla məhdudlaşdırıcı rejim əsasında sərhədləri bağladı. Ardınca bu qərar Gürcüstan, Türkiyə və Rusiya ilə dövlət sərhədlərinə də tətbiq edildi. Təhsil müəssisələrində tədris dayandırıldı. Martın 20-dən rayonlardan paytaxta giriş məhdudlaşdırıldı.

### *"...koronavirusla mübarizədə ön mövqedəyik"*

Əhalinin sıx istifadə etdiyi və virusun yayılma risqinin böyük olduğu metroda hərəkət məhdudlaşdırıldı. Aprelin 5-dən etibarən isə koronavirus infeksiyasının Azərbaycan ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətlərinin tətbiqinə başlandı. Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən çevik və düşünülmüş siyasətin nəticəsidir ki, koronavirusla mübarizədə ön mövqedəyik. Dövlət tərəfindən vaxtında və düzgün qərarların qəbul edilməsi sayəsində bu bəlanın ölkədə geniş yayılmasının qarşısı alındı".

***Vidadi ORDAHALLI***

# TƏBİB-in bu müraciətinə məqbul cavab hər bir azərbaycanlının milli borcu olmalıdır - qan plazması donorluğu, həm də hamıdan yox...

**Məlum olduğu kimi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) koronavirusdan sağalan vətəndaşlara müraciət edib. Müraciətdə qeyd edilir ki, artıq ölkədə ağır koronavirus xəstələrinin immun plazma müalicəsinə başlanıb. Bu məqsədlə TƏBİB COVID-19 xəstəliyindən sağalan vətəndaşlardan qan plazması donoru olaraq digər xəstələrə yardım etməyə çağırıb.**



## *Rafis Bağırov: "Sağalan xəstələr TƏBİB-in çağırışına könüllü olaraq cavab verməlidirlər"*

Qeyd edək ki, ötən ayın sonlarında TƏBİB koronavirus xəstələrinin müalicəsində istifadə olunan konvalesent plazma müalicəsinin artıq Azərbaycanda da tətbiq edilməyə başlanacağı barədə məlumat yaymışdı. Bildirilirdi ki, immun plazma müalicəsi COVID-19 diaqnozu ilə müalicə alıb sağalmış xəstələrdən Mərkəzi Qan Bankı tərəfindən toplanan qan plazmasının ağır vəziyyətdə olan xəstələrdə istifadəsi ilə həyata keçirilən müalicə metodudur.

Tanınmış həkim Rafis Bağırov bizimlə söhbətində bildirdi ki, COVID-19-a yoluxanların bu xəstəlikdən müalicə alaraq sağalanların qan plazması ilə müalicə üsuluna Avropada başlanıb. Onun sözlərinə görə, Azərbaycanda da bu metodun tətbiq edilməsi, virusdan müalicə olunaraq sağalanların bu prosesə qoşulmasına nail olmaq istəyi çox lazımlı təşəbbüsdür. "Bilirsiniz, koronavirusdan müalicə olunaraq sağalanların qan plazmasından yoluxan xəstələrə vurulması praktikası xarici ölkələrdə tətbiq edilib. Amma bizim əldə etdiyimiz məlumata görə, bu praktika özünü çox yüksək səviyyədə göstərməyib. Burada bir məsələ var. Əgər ağır vəziyyətdə olmayan xəstəyə bu plazma köçürüləcəksə, effekt verəcək, amma ölüm ayağında olan insana qan plazmasının hansısa bir kömək edəcəyi inandırıcı deyil. Yüngül xəstələrə tətbiq edilərkən bu özünü doğruldur.

Bu gün oxudum ki, İtaliyada koronavirusun vaksinini tapıblar. İtaliya elan edib ki, payızda bu vaksini yaymağa başlayacaqlar, başqa ölkələrə də satacaqlar. İtaliya bəyan edir ki, həmin vaksini artıq heyvanlar üzərində sınaqdan keçiriblər və bu özünü doğruldub, artıq insanlar üzərində də tətbiq ediləcək. Koronavirusun müalicəsində indiyə qədər istifadə edilən metodların hamısı hələ ki, köməkçi metodlardır, əsas metod deyil, əsas metod vaksindir. Bunlar köməkçi metodlardır. Köməkçi metodlardan biri də sağalanlardan qan plazmasının alınıb xəstələrə tətbiq edilməsidir. Azərbaycanda da bundan istifadə edilməsi müsbət haldır".

### *"Təşəbbüs göstərsələr, bu çox müsbət hal olardı"*

R.Bağırov hesab edir ki, Azərbaycanda koronavirisdan müalicə olunaraq sağalan insanlar könüllülük nümayiş etdirib çağırışlara cavab verməlidirlər: "Hesab edirəm ki, sağalan xəstələr TƏBİB-in çağırışına könüllü olaraq cavab verməlidirlər. Bu onların vətəndaşlıq borcudur. Qan vermək imkanı olanlar könüllü şəkildə bu prosesə qoşulmalıdırlar. Azərbaycanda həmişə bu kimi məsələlərdə həmrəylik olub. Bu gün sağalan insanlar bu müraciətə cavab verib təşəbbüs göstərsələr, bu çox müsbət hal olardı. Məncə, qoşulanlar çox olacaq. Bu olduqca əhəmiyyətli olardı. Köməkçi vasitə olsa belə, effektsiz olmayacaq".

R.Bağırov, həmçinin, qeyd etdi ki, bu prosesə hamının cəlb edilməsi doğru olmazdı, bu prosesdə iştirak edənlər bütün sağlamlıq parametrlərinə uyğun gəlməlidirlər.

Qeyd edək ki, hazırda Azərbaycanda koronavirusdan 1536 nəfər müalicə olunaraq sağalıb.

***İradə SARIYEVA***

# DTX İmişlinin sabiq icra başçısı Vilyam Hacıyevin həbsinin detallarını açıqladı

**Dövlət Təhlükəsizlik Xidməti İmişli rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyatla bağlı məlumat yayıb. Qurumdan baki-xeber.com-a verilən məlumatda bildirilir ki, Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırma tədbirləri davam etdirilməkdədir.**



Toplanmış materiallar üzrə, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyevin icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin sosial yardım adı altında bir hissəsini ələ keçirilməsinə, eləcə də ölkə ərazisində xüsusi karantin rejiminin tələblərinin pozulması ilə sərbəst hərəkət etmək üçün bəzi vətəndaşlara saxta arayışların verilməsini tapşırmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsənilən pul vəsaitlərini sahibliyində olan yaşayış evində qəbul etdiyinə əsaslı şübhələr müəyyən olunub.

2020-ci il mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Vilyam Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Müvafiq ünvanlarda keçirilmiş baxış zamanı Vilyam Hacıyevin rayon icra hakimiyyətinin baş mühasibi Cəmil Musayev və başqaları vasitəsilə qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, habelə ayrı-ayrı valyutalarda xüsusi qaydada qablaşdırılaraq saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb.

İstintaq araşdırmaları zamanı sosial-məişət şəraitinin aşağı olması ilə bağlı mənzil növbəsində olan şəxslərə İmişli şəhərində dövlət büdcəsi vəsaiti hesabına inşa edilmiş çoxmənzilli yaşayış binasında növbəli qaydada verilməli olan mənzillərin Vilyam Hacıyev tərəfindən rüşvət müqabilində qanunazidd verilməsinə əsaslı şübhələr müəyyən edilib.

Eyni zamanda, işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Vilyam Hacıyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilib.

Həmçinin Vilyam Hacıyevin rayon ərazisində təmir-tikinti, abadlıq işlərinə, habelə İmişli Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikintisinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin müntəzəm nağdlaşdıraraq mənimsəməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Vilyam Hacıyevin tabeliyində olan vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Vilyam Hacıyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, təkrar rüşvət alma, vəzifə saxtakarlığı faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# Koronavirusun yayılmasında vətəndaş məsuliyyətsizliyi faktorunun rolu - yoluxanların cəmi 10 faizi xaricdən gələnlərmiş, 90 faizi isə...

**Dünyada yenidən bir kabus dolaşmaqdadır. Artıq 3 aydır bu qlobal təhdid mənbəyi qismində başlanğıcını Çinin Uhan şəhərindən götürən koronaviris pandemiyası çıxış edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) martın 11-də bu virusun təsir imkanlarını məhz pandemiya kimi müəyyən edib və "SOS" siqnalı verib.**

*"...dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur"*

***Könül İsmayılova:** "Vətəndaşlarımız karantin rejiminə məhəl qoymayıblar, nəticədə xəstəlikdən əziyyət çəkənlərin sayı artır"*




Antarktida istisna olmaqla, bütün qitələr bu pandemiyanın cəngindədir. Dünya koronavirusla müharibə vəziyyətindədir.

Təəssüf ki, koronavirus Azərbaycandan da yan keçməyib. Bu xəstəlikdən qurtulmaq üçün ölkəmizdə lazımi işlər görülür. Lakin vətəndaşların məsuliyyətsizliyi nəticəsində virus yayılmaqda davam edir.

Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycanda koronaviruslu xəstələrin 10 faizi xaricdən gələnlərdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında bildirib ki, ilk dövrlərdə xaricdən gələnlər üstünlük təşkil edirdi: "Daha sonra daxildə yoluxma nəticəsində rəqəmlər artdı".

Daxildə yoluxmanın artması onu göstərir ki, vətəndaşlarımız karantin rejiminə məhəl qoymayıblar, nəticədə xəstəlikdən əziyyət çəkənlərin sayı artır.

Psixoloq Könül İsmayılova bildirdi ki, koronavirusa yoluxmamaq üçün hər bir vətəndaş əlindən gələni etməlidir. Bu gün bizim əsas işimiz dövlətin qərarlarına, Prezidentin çağırışlarına əməl edib evdə oturmaq və evimizin içindən dövlətə, cəmiyyətə faydalı olmaqdır. Amma çox təəssüf ki, bəzi vətəndaşlarımız öz vəzifələrinə çox məsuliyyətsiz yanaşır və zərurət olmadan küçəyə çıxırlar: "Bütün bəşəriyyəti caynağına alan bu xəstəlik qarşısında hamımız acizik, hamı bu virusa qarşı mübarizə aparmalı, təlimatlara əməl etməlidir. İnsanlar nə qədər çox evdə qalsalar, bir o qədər də yoluxma halları azalacaq, onlar öz iradəsi ilə sanki bu xəstəliyin qarşısına baryer çəkmiş olacaqlar. Dəfələrlə ölkə başçısı çağırışlar etdi, insanları dövlətin qərarlarına əməl etməyə səslədi, ziyalılar, KİV bu sahədə təbliğat, maarifçilik işləri apardılar. Çox təəssüf ki, bəzi vətəndaşların məsuliyyətsizliyi bu sahədə inzibati yollara əl atılmasına səbəb oldu".

Psixoloq onu da vurğuladı ki,vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən bütün dünyada yaranmış hazırkı vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

**Belə ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir.**

***Günel CƏLİLOVA***

**Azərbaycan iqtisadiyyatı üçün zaman-zaman bəzi bankların ciddi təhdid yaratması heç kimə sirr deyil. Hələ 5 il əvvəl baş vermiş məlum devalvasiyalar fonunda bu hal bəzi bankların timsalında özünü qabarıq göstərdi. Elə o vaxtdan hökumət bank sektorunun yaratdığı mümkün təhdidləri aradan qaldırmaq üçün daha aktiv siyasətə start verdi.**

# Bank sistemində təhdid yaradanların fəaliyyətinə son qoyulur...

10-dan çox bankın fəaliyyətinin dayandırılması, bəzilərinin müflis vəziyyətdən xilas olması istiqamətində görülən tədbirlər müsbət nəticə verdi.

Indinin özündə də bank sahəsində zəif olanlar və problem yaradanların fəaliyyətinə son qoyulması istiqamətində müvafiq addımlar davam etdirilir. Artıq məlumat verildiyi kimi, 27 apreldə Mərkəzi Bank 4 bankın, yəni "Atabank", "AGBank", "NBCBank" və "Amrah Bank"ın idarəçiliyini öz üzərinə götürüb. 28 apreldə isə "Atabank" və "Amrah Bank"ın lisenziyasını ləğv edib. Bura qoyulan əmanətlər sarıdan hansısa problem yoxdur. Xatırladaq ki, bağlanan banklardakı əmanətlərin ümumi məbləği 850 milyon manatdır. Mərkəzi Bankın məlumatına görə, müflis olan banklardakı əmanətlərin 98 faizi qorunur. Həmin əmanətlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən vətəndaşlara qaytarılacaq. Bankların özlərinə gəlincə, zəif olanların fəaliyyətinin bundan sonra da dayandırılması qaçılmazdır. Mərkəzi Bankın sədri Elman Rüstəmov bu xüsusda artıq bir sıra maraqlı açıqlamalarla çıxış edib "Dövlət banklara lisenziya verib, onların inkişafı üçün hər cür şərait yaradıb. Təkcə XXI əsrdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox böyüyüb, bank sektoru da buna uyğun olaraq qazanmalı, böyüməli və kapitallaşmalı idi. Bəzi banklar bu imkandan istifadə ediblər və bu gün ayaq üstə möhkəm durublar, bəziləri isə bunu etməyiblər. Bu gün bağlanan bankların sahibləri heç kimi günahlandırmalı deyil, problemi özlərində axtarmalıdır.

Bu gün bəzi ekspertlər danışanda mən təəccüblənirəm, çünki onlar peşəkardır, bank qanunvericiliyini bilirlər, amma deyirlər ki, dövlət bankları xilas etməlidir. Dövlətin belə bir vəzifəsi yoxdur. Dövlət yalnız əmanətçilər qarşısında götürdüyü öhdəliyə əməl edə bilər. Bunun üçün əmanətlərin sığortalanması ilə bağlı mexanizm var və banklar kollektiv şəkildə birləşərək dolayısı ilə əmanətçilərin pulunu qaytarmalıdır. Məlum 4 bankın əmanətçiləri ilə bağlı məsuliyyət bundan sonra bazarda qalmış 26 bankın üzərinə düşür. Problemlə üzləşmiş banklar sistem əhəmiyyətli banklar da deyil ki, dövlət onları xilas etsin. Onların bazar payı ayrı-ayrılıqda 1%-ə çatmır, ümumilikdə 3%-dir, hamısı özəl banklardır. Dövlətin məsuliyyəti yalnız dövlət bankı üçün ola bilər, o da bankda dövlət payı çox olanda. Qanunvericilik və ənənə belədir. Ötən il problemli kreditlərlə bağlı Azərbaycanda dünyada nümunəsi olmayan bir addım atıldı. Bu yolla həmin özəl banklara çox böyük yardım göstərildi. Bundan artıq dövlətin edə biləcəyi bir şey yoxdur". Baş bankir maraqlı bir məqama da toxunaraq, zəif bankların bağlanma səbəblərini də açıqlayıb:"Mərkəzi Bankın apardığı araşdırmalar göstərir ki, son vaxtlar maliyyə vəziyyəti pisləşmiş bankların problemləri oxşardır. Məlum 4 bankdan 3-ü - "Atabank", "NBC Bank" və müəyyən dərəcədə "Amrah Bank" bazara açıq olmayan, sahibinin biznesinə qapanmış banklardır. Təəssüf ki, uzaq keçmişimizdən qalmış bir bank modeli var. Bank daxil olduğu böyük bir holdinqə, biznesə xidmət edir. Əhalidən qəbul edilmiş əmanətlər də məhz həmin biznesə yönəldilir və itirilir. Yəni çox risqli kredit siyasəti yürüdülür, böyük iddiaları olan şəxslərin layihələri maliyyələşdirilir, bilinmir bu layihələrin axırı nə olacaq, hətta bank profilindən kənar böyük əmlaklar alınır və son nəticədə vəsaitin yerləşdirilməsi xeyir gətirmir. Aşağı səviyyədə idarəetmənin olması, risq menecmentinin olmaması kimi problemlər var". O qeyd edib ki, "Azərbaycanda zəif bank bəzən açıq, bəzən də gizli yollarla yüksək faizlə əmanətlər cəlb edir və bazarda faizləri qaldırmaqla digər banklar üçün pis nümunə olur. Hazırda bu problemlərin həlli istiqamətində də mühüm addımlar atılır. Bundan sonra da zəif banklarla bağlı müvafiq tədbirlərin görülməsi gündəmdədir. Eyni zamanda bəzi bankların birləşməsi də istisna edilmir. Yəni ölkənin bank sisteminə xələl gətirə biləcək, kreditorların qarşısında öhdəliklərini yerinə yetirə bilməyən, yüksək risqlərə malik olan banklar, belə demək olarsa, bundan sonra da aradan götürüləcək. Məqsəd ilk növbədə ondan ibarətdir ki, bank sistemində, sayı az olsa da, iri, sağlam və rəqabətli iştirakçılar qalsın.




Xatırladaq ki, bankların konsolidasiyası, yəni birləşməsi əsasən məcburi və ya vəziyyətin təsiri altında, ya da könüllü olur. İkinci halda konsolidasiyanın əsas məqsədi bazarda mövqelərini möhkəmləndirmək, rəqabət qabiliyyətini artırmaq, bazarın daha iri payına malik olmaqdır. Elə hökumət də məhz bunda maraqlıdır. Məcburi konsolidasiya əksər hallarda bir qurumun digəri tərəfindən alınması formasında həyata keçirilir və birincinin hər hansı formada bazarda qalması məqsədi daşıyır. Hökumət hazırda bankların könüllü birləşməsinə xüsusi maraq göstərir. Bu mənada, bankların birləşməsi məsələsi Mərkəzi Bank tərəfindən həmişə təbliğ edilib. İndi də bu istiqamətdə müvafiq işlər görülür. Digər tərəfdən, monetar siyasət onu tələb edir ki, sistemdə yalnız etibarlı və dayanıqlı iştirakçılar qalsın. Bu, bankların dayanıqlığını kəskin şəkildə artırmış olacaq. Bundan əlavə, bankın likvidliyin idarə edilməsi üzrə imkanlarını artıracaq ki, bu da öz növbəsində bankın maliyyə imkanlarını daha da çoxaldacaq. Sistem baxımından isə bu, risqlərin azaldılması deməkdir ki, indiki şəraitdə əsas məqam da budur. O da faktdır ki, bank sistemində sağlamlıq təmin olunarsa, banklar öhdəliklərin yerinə yetirilməsi məsələsində çətinlik çəkməzsə, sistemdə sabitlik yaranacaq və əhalinin banklardan depozitləri çıxarması ehtimalı kəskin azalacaq. Hazırda hökumətin fəaliyyəti məhz bu istiqamətdədər və demək olar ki, zəif bankların fəaliyyətinə tezliklə son qoyulacaq.

***Ramil QULİYEV***

№ 74 (4205) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

8 MAY 2020-ci il

www.baki-xeber.com



# Yerə düşən ən bahalı meteoritlər...

**Ötən əsrin 40-cı illərinə kimi meteoritlər əsasən muzeylərdə və ya elmi araşdırma institutlarında saxlanırdı. Lakin 1946-cı ildən Amerikada bu səma obyektlərinin hissələri satılmağa başlayıb.**

"Oxu.az" xəbər verir ki, meteoritlər çox vaxt az qala "kosmik" qiymətə satışa çıxarılır. Beləliklə, indiyədək satılmış ən bahalı meteoritləri təqdim edirik: 1. Fukan meteoriti. Bu meteorit Çinin şimal-qərb hissəsində yerləşən Fukan şəhərində tapılıb. Meteorit 50 % dəmir-nikel əsasından və 50 % də olivindən ibarətdir. Bu kosmik obyektin ümumi çəkisi 1 000 kq olub. Lakin meteorit bir neçə hissəyə bölünərək müxtəlif hərraclara çıxarılıb. O, ümumilikdə, 1,7 milyon avro məbləğində dəyərləndirilir. 2. Brenham meteoriti. Meteoritin əsas hissəsi Kanzas ştatında (ABŞ) 2005-ci ildə tapılıb. O, 896 000 avrodan artıq məbləğdə dəyərləndirilir. 3. Uillamet meteoriti. Meteoritin çəkisi 15,5 tondan çoxdur. Bu, ABŞ ərazisində tapılmış ən iri, dünyada isə ölçücə ən böyük meteoritdir. O, Oreqon ştatında aşkar edilib. Meteorit 851 000 avro məbləğində dəyərləndirilir. 4. "Conception Junction" meteoriti. Bu meteorit 2006-cı ildə ABŞ-ın Missuri ştatında tapılıb. Tədqiqatçılar hesab edirlər ki, o, vaxtilə Marsla Yupiterin arasında fırlanan asteroidin bir parçası olub. O, 724 000 avro məbləğində dəyərləndirilir. 5. "Springwater" meteoriti. Meteorit 1931-ci ildə Kanadanın Saskaçevan əyalətində tapılıb. Onun 52,8 kq ağırlığında olan ən iri fraqmenti Torontoda Ontario Kral muzeyində saxlanır. O, 511 000 avro məbləğində dəyərləndirilir. 6. Çelyabinsk meteoriti. Meteorit 2013-cü il fevralın 15-də Yerə düşüb. Bu səma obyekti zərbə dalğaları nəticəsində parçalanaraq, hissələri Rusiyanın Çelyabinsk və ətraf regionlarına, eləcə də Qazaxıstan ərazisinə düşüb. Onun əksər fraqmenti Çelyabinsk əyalətində tapılıb. Onun 654 kq ağırlığında olan ən iri parçası isə 2013-cü ilin oktyabr ayında Çebarkul gölünün dibindən qaldırılıb. Meteorit 336 000 avro məbləğində dəyərləndirilir. 7. Dar əl Qani 1058. Dar əl Qani hərracda satılan ən bahalı meteorit olub. O, 281 000 avro məbləğində dəyərləndirilir. Bu meteorit 1998-ci ildə Liviyada tapılıb. 8. Zaqami meteoriti. Bu, indiyə qədər Yerə düşən meteoritlərin arasında ən irisi hesab olunur. Bu səma obyekti 1962-ci ildə Zaqamidən (Nigeriya) olan fermerin cəmi bir neçə addımlığına düşərək, onu az qala öldürmüşdü. Meteoritin bir parçası 278 000 avroya satılıb. 9. "Gibeon" meteoriti. Bu meteorit 1836-cı ildə aşkar edilib. Alimlərin fikrincə, o, Yerə 500 000 il əvvəl düşüb. İlk dəfə nama tayfası tərəfindən aşkar edilib. Onlar meteoritin ayrı-ayrı parçalarından silah və əmək alətləri düzəltmək üçün istifadə edirdilər. Meteorit 280 000 avro məbləğində dəyərləndirilir.

## "Uşaq Qaynar Xətt"i son 1 ayda rekord sayda müraciət qəbul edib

*"Azercell"in dəstəyilə yaradılan "Qaynar Xətt" xidmətinə 756 zəng daxil olub*

**"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti aprel ayının nəticələri ilə bağlı statistikanı açıqlayıb. Məlumata görə, bu ilin aprel ayında mərkəzə 756 zəng daxil olub. "Azercell Telekom" MMC tərəfindən yaradılan və dəstəklənən bu xidmətə daxil olan zənglərin əksəriyyəti - 423 müraciət təhsillə əlaqədardır.**

"Uşaq Qaynar Xətt"inə sosial məsələlərlə bağlı 98, səhiyyə ilə bağlı 66, psixoloji problemlərlə bağlı 51, hüquqi prosedurlarla əlaqəli 44 müraciət daxil olub. Daha 74 müraciət isə bu kateqoriyalara aid edilməyən fərqli məsələlərə dair olub. Müraciətlərin 665-i ilkin, 91-i isə təkrarən daxil olub. Zəng edənlər arasında qızlar nisbətən üstünlük təşkil edir - müraciət edənlərin 425-i qızlar, 326-sı oğlanlar olub. 5 şikayət SMS üzərindən qeydə alındığından, müraciətçilərin cinsləri müəyyən olunmayıb. Uşaqlar üçün "Qaynar Xətt"ə müraciət edənlərin təxminən 85%-i yaşı 18-dən yuxarı şəxslər olub.

Ölkəmizdə COVID-19 virusunun yayılmasının önlənməsi məqsədilə karantin rejimi tətbiq olunduğundan, "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin əməkdaşları fəaliyyətlərini evdən davam etdiriblər. "Qaynar Xətt" xidmətinin 116111 qısa nömrəsi mobil telefona yönləndirilib və müraciətlər 7/24 saat mütəmadi olaraq operatorlar tərəfindən cavablandırılıb. Ay ərzində mərkəzin mobil nömrələrinə 712, şəhər telefonuna 18 zəng daxil olub, 26 müraciət isə SMS vasitəsilə qeydə alınıb.

Aprel ayı boyu karantin rejiminin davam etməsinə baxmayaraq, mərkəz əməkdaşları 6 ailəyə baş çəkiblər. Ziyarət zamanı ailədəki uşaqlarla tanış olublar, onların problemlərini dinləyiblər, məsələnin araşdırılması və təcili dəstəyin göstərilməsi üçün aidiyyatı qurumlara məktublar göndəriblər. Aprelin 29-dan etibarən "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətində fərdi konsultasiyaların keçirilməsi, reabilitasiyaya cəlb olunmuş ailələrlə görüşlərin təşkili qismən bərpa olunub.

Son ay ərzində "Qaynar Xətt"in mediada təbliği istiqamətində də addımlar atılıb. Mərkəzin əməkdaşları yerli televiziya kanallarında çıxışlar edərək, mövcud problemlərdən danışıblar, maarifləndirməyə diqqət yetiriblər. Media orqanlarında uşaqların evdə səmərəli vaxt keçirməsi, onların özgüvən problemi, koronavirusdan qorunma və digər önəmli mövzularda müzakirələr aparılıb. Eyni zamanda, sosial şəbəkələrdə də fəaliyyət genişləndirilib, canlı yayımlar təşkil olunub.

Ümumilikdə, 2020-ci ilin ilk 4 ayı ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə 2069 müraciət daxil olub.

Qeyd edək ki, "Azercell Telekom" MMC-nin dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 7/24 rejimi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidməti haqqında ətraflı məlumatı www.usaqxetti.az internet səhifəsindən əldə etmək mümkündür.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Hadisələr sizə göründüyü qədər də pis inkişaf etmir. İş burasındadır ki, siz bu gün bütün olanlara çox böyük şübhə ilə yanaşırsınız, istənilən dəyişikliyə pis münasibət bəsləyir və köhnəliyi saxlamağa çalışırsınız.



**Buğa** - Yaxınlarınızın sizə verdikləri məsləhətləri nahaq qulaqardına verirsiniz. Diqqətinizi özünüzə yönəltməyiniz hadisələrə başqa rakursdan yanaşmağa mane olacaq. Günün ikinci yarısı yüngüllük, öz vəzifələrinizə qarşı biganəlik nümayiş etdirməyiniz mümkündür.



**Əkizlər** - Həftə elə də ürəkaçan tərzdə başlamır. Əslində hər şey göründüyü qədər pis olmasa da, əl-qolunuz yanınıza düşür: yağılıb qalmış problemləri necə həll etməyi bilmirsiniz. Yaxşı olar ki, tələsik olmayan işləri təxirə salasınız.



**Xərçəng** - İstənilən xırda məsələ qanınızı qaralda bilər. Bu səbəbdən mübahisə edir, hətta ən sakit və təmkinli insanları özlərindən çıxarırsınız. Axşama doğru ağlınız, nəhayət ki, "evinə" qayıdacaq, emosiyalarınız geri çəkiləcək və özünüzün yaratdığınız problemləri aradan qaldırmağa başlayacaqsınız.



**Şir** -İşgüzar ünsiyyət, danışıqların aparılması, maliyyə və əmlak məsələlərinin müzakirəsi üçün yaxşı gündür. Nəinki söhbətin mövzusu ilə bağlı dərin biliklərinizi nümayiş etdirir, eyni zamanda məlahətinizi də işə salırsınız.



**Qız** - Səhəriniz çox gözəl başlayır. İşgüzar aktivliyiniz yüksəkdir, məhz lazım olan yerdə qətiyyət və inad göstərir, güzəştə getmək lazım olanda müəyyən mülayimət göstərmir və incimirsiniz.



**Tərəzi** - Çoxdan üzərində baş sındırdığınız bir məsələ həllini tapa bilər. Şəxsi xarakterli vacib bir sualınıza cavab alacaqsınız. Gələcəklə bağlı planlar qurmaq vaxtıdır.



**Əqrəb** - Uğurlu gündür. Vacib olanı edir və can atdığınız nəticəni qazanırsınız. Bədxahlarınız da sizə pislik etməkdən çəkinirlər, çünki anlayırlar ki, faydası yoxdur. Mürəkkəb işgüzar məsələləri yoluna qoymaq asan olacaq.



**Oxatan** - Şəxsi həyatınızda xoş dəyişikliklər mümkündür. Hiss edirsiniz ki, hansısa vacib qərarı verməyə hazırsınız və vaxt itirmirsiniz. Əhvalınız yaxşı olacaq, xırda çətinliklər belə, onu korlaya bilməyəcək.



**Oğlaq** - Çətinliklər günün ikinci yarısı yarana bilər. Bu dövrdə sərt məzəmmətlər edə, güzəştsiz təkliflər irəli sürə bilərsiniz. Ətrafınızdakılara sizin reaksiyanız sərt və hətta təcavüzkar təsir bağışlayacaq.



**Dolça** - Gün əla başlayır və elə o cür də davam edir. istənilən işin öhdəsindən asanlıqla gələrsiniz. Bunu heç kim diqqətdən qaçırmır. Maaşınızın artmasına, yaxud karyera yüksəlişinə ümid edə bilərsiniz.



**Balıqlar** - Maliyyə və əmlak məsələlərinə barmaqarası baxmağınız isə problemlər yarada bilər. Pullar ildırım sürətilə yoxa çıxır və siz bunun qarşısını almaq üçün heç bir tədbir görmürsünüz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Mars 4 milyard il əvvəl həyatın yaranması üçün əlverişli olub

**Mars meteoritində azot tərkibli orqanik material aşkar edilib. "Ted.az" bildirir ki, karbonatlı minerallar adətən çöküntüyə qrunt sularından qarışdığından, bu kəşf Marsın 4 milyard il əvvəl həyatın yaranması üçün əlverişli olduğunu ehtimal etməyə əsas verir.**

Marsın öyrənilməsində Antarktidada 1984-cü ildə tapılmış Allan Hills (ALH) 84001 meteoriti xüsusilə əhəmiyyətlidir. Yeni tədqiqat işində alimlər qeyd olunan meteoriti tədqiq edərkən karbonatlarda azotun miqdarının öyrənilməsi üçün bundan öncə aparılan araşdırmalardan fərqli olaraq ən müasir analitik metodlardan istifadə ediblər. Bu tapıntılar göstərir ki, Mars "Qırmızı planet" olana qədər onda orqanik azot mövcud olub. Erkən Marsın rütubətli və orqanik maddələrlə zəngin olması güman olunur.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.